www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10-11 yanvar 2015-ci il Şənbə № 5 (6033) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda yeni məscidlə bağlı sələfi planı

yazısı səh.2-də

**Gündəm**

### Fransa yeni terrorlarla sarsıldı - amma bu da son deyil...



"Charlie Hebdo" da qətliam törədənlər yenidən terrora əl atdılar; Parisdə marketdə 6 nəfəri girov götürən Kuaşi qardaşları öldürüldü; Eyfel qülləsi ətrafında atışma; dünya şokda...

yazısı səh.3-də

### Rəsmi Bakı ilə ABŞ arasında "buzlar əriyir"

yazısı səh.6-da

### Fransa ordusu Əlcəzairdə 1.5 milyon müsəlmanı niyə və necə öldürüb?

yazısı səh.7-də

### Elçin Behbudov işgəncə faktlarını açıqladı

yazısı səh.10-da

### Rəis müavini Cəlilabaddakı mal-qara oğurluğundan danışdı

yazısı səh.12-də

### Azərbaycan üçün "savaşdan qayıdanlar" təhlükəsi

yazısı səh.12-də

### "Bankların krediti ancaq dollarla verəcəyi xəbərləri şayiədir"

yazısı səh.14-də

### Müsavatdan Qubad İbadoğlunun təşkilatının ünvanına sərt sözlər

yazısı səh.11-də

### Əli Mirəliyev də ermənicə mahnı oxudu

yazısı səh.14-də

### Əfv ərizəsi yazanlardan kimlər azadlığa buraxılmayıb?

yazısı səh.11-də

### Kəlbəcərli girovların xilas yolları...

yazısı səh.12-də

### Azərbaycan insanını aqressivləşdirən səbəblər

yazısı səh.13-də

## Dünyanın simasını 11 sentyabr qədər dəyişən olay

# 7 YANVAR TERRORUNUN KÜLƏYİ AZƏRBAYCANI DA VURACAQ - TƏHLÜKƏ

Qlobal düzəni poza biləcək qorxulu prosesin tətiyi çəkilmiş kimi görünür; Paris qətliamı həm də Krımın ilhaqının effektinə bərabər rezonans doğurub və Rusiya işğalını arxa plana keçirib - dost-müttəfiqlərin sırası dəyişə bilər; ölkəmiz yeni təhdidlərlə üz-üzə...





yazısı səh.7-də

## "Standartbank"ın işçisi iki qardaşı namus üstə öldürüb - versiya

Qanlı olayla bağlı müdhiş detallar ortaya çıxdı; Sahil qəsəbəsinin sakinlərinin iddiası: "Zaur Tərlanov arvadının Rəhimov qardaşlarından biri ilə münasibətindən şübhələnib"; öldürülən gənclərin anası yüksək faizlə sələmə pul verirmiş...

yazısı səh.3-də



### Bahar Muradovadan "Yeni Müsavat"a ilginc açıqlamalar

yazısı səh.5-də



*Azər Ayxan:*

### "Redaksiyaların mühafizə işini dövlət öz üzərinə götürməlidir"

yazısı səh.4-də



*İsa Qəmbər:*

### "İndi daha azadam..."

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015



Müsavat Partiyasının başqanı Arif Hacılı müşaviri Baha Mikayılı 50 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:

"Hörmətli Baha bəy!

Sizi 50 illik yubileyiniz münasibəti ilə təbrik edir, uzun ömür, can sağlığı və işlərinizdə uğurlar arzulayıram.

Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal iştirakçılarından biri olmusunuz. Yarandığı ilk gündən Azərbaycan Xalq Cəbhəsinin üzvü kimi milli istiqlalımız və ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu işinə böyük töhfələr vermisiniz. Apardığınız bu şərəfli işi 1995-ci ildən Müsavat Partiyasının sıralarında davam etdirmisiniz. Uzun müddət Kürdəmir rayon təşkilatının sədri kimi bu təşkilatın fəaliyyətinin gücləndirilməsində böyük xidmətləriniz olub. Partiyanın iştirak etdiyi bütün seçkilərdə namizəd və ya digər görəvlərdə uğurla iştirakınız, eyni zamanda seçkilər ərəfəsi və seçkilərdən sonrakı proseslərdə üzləşdiyiniz təqib və təzyiqlərə baxmayaraq nümayiş etdirdiyiniz cəsarət, əqidəyə sədaqətiniz xüsusilə təqdirəlayiqdir. Siz bu gün də həm rayon təşkilatının Şura üzvü, həm də Başqan müşaviri kimi partiyadaşlarımızla çiyin-çiyinə azad, demokratik və hüquqi cəmiyyət quruculuğu uğrunda mübarizənizi davam etdirirsiniz.

Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz ictimaiyyət arasında Sizə böyük nüfuz qazandırıb.

Hörmətli Baha bəy!

Sizi bir daha yubileyinizlə əlaqədar ürəkdən təbrik edir, şəxsi həyatınızda, apardığımız bu müqəddəs mübarizədə uğurlar arzulayıram".

# Leyla Yunus məhkəmə tibbi ekspertizasından keçdi

## Elçin Qəmbərov: "Nəticələr barədə istintaq müddətində məlumat veriləcək"



**Həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun yanvarın 8-də məhkəmə tibbi ekspertizası keçirilib. Bu hüquq müdafiəçinin vəkillərinin vəsatəti əsasında mümkün olub. Ekspertizanın nəticələri barədə istintaq müddətində məlumat veriləcək.**

Bu barədə musavat.com-a Leyla Yunusla yanvarın 8-də 1 saylı Bakı İstintaq Təcridxanasında görüşən vəkil Elçin Qəmbərov məlumat verib: "Leyla Yunusla bağlı son məlumat ondan ibarətdir ki, yanvarın 8-də məhkəmə tibbi ekspertizası keçirildi. Bu biz vəkillərin vəsatəti əsasında keçirilmişdir. Nəticələr barədə təbii ki, istintaq müddətində məlumat veriləcək. Leyla Yunusun özü ilə görüşdüm. O, mətbuatdan xahiş etdi ki, yanvarın 12-də 60 yaşı tamam olan həbsdəki həyat yoldaşı Arif Yunusa təbriklərini çatdırsınlar. Mən ona dedim ki, yaxın günlərdə İntiqam Əliyev və Rəsul Cəfərovun məhkəmələri başlamalıdır. O, bildirdi ki, bu şəxslərin yaxın günlərdə məhkəmələrinin olacağına inanmır. Hesab edir ki, bu ilin sonuna qədər həbsdə qalacaq".

**Elçin Qəmbərov hüquq müdafiəçisinin səhhəti ilə bağlı da danışdı:** "Leyla Yunusla görüşdən sonra bəyanat yaydım. Bunun səbəbi mətbuatda yayılan xəbərlərlə bağlı idi. Guya alman həkimin iştirakı ilə aparılan müayinə Respublika Diaqnostika Mərkəzində olub. Alman həkim guya deyib ki, Leyla Yunusun səhhətində heç nə yoxdur. Bu həqiqətə uyğun deyil. Bəyanatda hamısını qeyd etmişəm. Alman həkim Leyla xanımdan qan analizi götürərək, Almaniya aparıb. Bildirmişdi ki, ilkin nəticələri Avropa Məhkəməsinə göndərəcək. Bu xəbərləri "Azərtac" yaymışdı. Bütün bu yayılan xəbərlərlə bağlı etirazımızı bildirdik. Saxlanma şəraiti ilə bağlı bizim heç bir narazılığımız yoxdur. Saxlandığı kamera və səhhəti ilə bağlı da narazılığı yoxdur".

❑ **Cavanşir ABBASLI**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# AzadlıqRadiosu ətrafındakı proseslər yenidən qızışır

## Pərviz Həşimli ən ağır zona köçürüldü

Jurnalisti Əli İnsanovun yanına göndəriblər

**Tanınmış jurnalist Pərviz Həşimli saxlanıldığı Bakı İstintaq Təcridxanasından 13 saylı Cəzaçəkmə Müəssisəsinə göndərilib. Məlumatı jurnalistin vəkili Bəhruz Bayramov moderator.az-a verib.**

13 saylı Cəzaçəmə Müəssisəsi ölkənin ən ağır şəraiti olan "kolon"u kimi tanınır və Qaradağ rayonunun Güzdək qəsəbəsində, sözün həqiqi mənasında cəhənnəmi xatırladan bir ərazidə yerləşir. Vaxtilə tanınmış vəkil Qurban Məmmədov da 1998-2003- cü illərdəki həbs müddətinin son illərini orada keçirmişdi. İndi də keçmiş səhiyyə naziri Əli İnsanov orada cəza çəkir.

Bu ilin noyabr ayında P.Həşimli presidentə əfv ərizəsi ilə müraciət etmişdi. Səhhətindəki problemlər və himayəsində azyaşlı uşağın olmasının nəzərə alınmasını istəyən jurnalist əfv siyahısına düşmədi. Hüquq müdafiəçiləri onun növbəti əfv fərmanı ilə azadlığa çıxacağına inanır.

P.Həşimli ötən il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən həbs edilib. O, Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq) və 228.2.1-ci (qanunsuz olaraq odlu silah əldə etmə, saxlama) maddələri ilə ittiham olunaraq 8 il azadlıqdan məhrum edilib.

❑ **Sevinc TELMANQIZI**




## Radionun daha bir əməkdaşı istintaqa çağırıldı, Amerikadan qəzəbli hücumlar var

**Artıq 2-ci həftədir ki, Azadlıq Radiosunun Bakıdakı əməkdaşları istintaq və təzyiq altındadırlar. Bu barədə radionun saytında yazılıb. Yazıda qeyd edilib ki, radionun Bakı bürosunun qapısı möhürləndikdən sonrakı günlərdə jurnalistləri istintaqa çağırır, bəzi hallarda bunu vəkillərin iştirakı olmadan həyata keçirirlər: "Hakimiyyət nümayəndələri radionun müxtəlif cinayətlərlə bağlı olduğu haqda bir-birinə zidd bəyanatlar verir, gah casusluq, gah çirkli pul yumaq, gah da əməkdaşların hüququnun pozulması haqda ittihamlar səsləndirirlər".**

Azadlıq Radiosu şirkətin rəhbərliyinə heç bir rəsmi məlumat vermədən onun sıravi əməkdaşlarına təzyiq edən hökuməti kəskin pisləyərək, baş verənləri AzadlıqRadiosundan işıqlandırdığı mövzulara görə qisas adlandırıb. Bundan əvvəl Azərbaycan məmurlarının gizli biznes fəaliyyətini araşdıran AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın həbsinin arxasında da eyni səbəblərin durduğu bildirilmişdi.

Radionun əməkdaşı İslam Şıxəli yanvarın 9-da Hövsan polisinə çağırılıb, oradan Bakı şəhər Prokurorluğuna aparılıb. "Bundan əvvəl istintaqa çağırılanda da evlərinə polis gəlmişdi deyə atası infarkt olmuşdu. Hal-hazırda da atasının vəziyyəti pisləşib"- deyə, xəbərdə qeyd edilir.

Bu arada ABŞ-ın "The Wall Street Journal" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Elin Süleymanovun məktubu dərc edilib. **APA-nın xəbərinə görə, Elin Süleymanov** "Freedom House" təşkilatının keçmiş rəhbəri, **Vaşinqtondakı Makkeyn İnstitutunun direktoru David Kramerin** Azadlıq Radiosunun Bakı bürosu ilə bağlı tənqidlərinə cavab verib. Səfir bildirib ki, Azərbaycanda aparılan istintaqın ABŞ-a qarşı meydan oxumaq şəklində qiymətləndirilməsi sovet dövründə "əzilən, məsum ABŞ kommunistləri"nin azad edilməsi uğrunda kampaniyanı xatırladır: "SSRİ-də yaşamış biri kimi, mən təəssüflə qeyd etməliyəm ki, bir neçə onillik ərzində ideoloji dezinformasiya kampaniyalarının metodları dəyişməz qalıb".

Səfir qeyd edib ki, Kramerin müdafiə etməyə çalışdığı Leyla Yunus beynəlxalq həkim briqadası tərəfindən müayinə olunaraq sağlam hesab edilib, Azadlıq Radiosunun Bakı bürosu əməkdaşlarının dindirilməsi isə bu KİV-in yaxşı məlum olan ümumi problemi - maliyyə idarəçiliyi ilə bağlıdır.

**ABŞ Dövlət katibinin yardımçısı Tom Malinovski** isə Azadlıq Radiosuna müsahibəsində bu radionun ABŞ Konqresi tərəfindən maliyyələşdirilən media qurumu olduğunu xatırladıb. O deyib ki, radionun əməkdaşı Xədicə İsmayıl da daxil olmaqla Azərbaycanda hüquq müdafiəçiləri və ictimai fəalların saxta ittihamlarla həbs edilib. Getdikcə güclənən anti-Amerika ritorikasını qeyd edən müəllifin fikrincə, Azərbaycanda baş verənlər ABŞ-a qarşı "çirkin kampaniyadır".

❑ **Yeni Müsavat**

## Dərbənddə Nizaminin abidəsinə qarşı vandalizm aktı

**Dağıstanın Dərbənd şəhərində Azərbaycan şairi və mütəfəkkiri Nizaminin abidəsi yandırılıb. Abidənin olduğu şəhər parkında təmir işləri gedir və abidə ağ parça ilə örtülüb. Barbarlar parçanı yandırıblar və abidə yanıb. Bu barədə Turan-a şəhər sakinləri məlumat veriblər.**

"Bundan öncə abidənin üzərinə rəng çəkilib və barmağı sındırılmışdı. Bu barbarlıq aktı barədə mətbuat yazmışdı. Azərbaycan ictimaiyyəti baş verənlərdən narahatdır və bu işdə abidələrin qorunması üzrə tədbirlər həyata keçirməyən Dərbənd rəhbərliyini günahlandırır. Bu yaxınlarda şəhərdə digər azərbaycanlı, Sovet İttifaqı qəhrəmanı Şamsul Ağayevin abidəsi dağıdılmışdı. Dərbənd ictimaiyyəti bu faktlardan hiddətlənib və etiraz mitinqi keçirmək niyyətindədir" - deyə, mənbə bildirib.

## Bakıda yeni məscidlə bağlı sələfi planı

Dekabrda açılışı olan məscidə imam təyinatı hələ də baş tutmayıb, məscidləri bağlanan sələfi icması yeni məscidə yerləşməyə hazırlaşır

**Ötən il dekabrın 26-də açılışı olmuş "Heydər məscidi" ətrafında müəmmalı vəziyyət davam edir. Məscidin təntənəli açılış mərasimi olmasına baxmayaraq ibadət ocağına axund və imam təyinatı hələ də reallaşmayıb. Belə ki məscidə axund və imam təyinatı Qafqaz Müsəlmanları İdarəsi tərəfindən həyata keçirilsə də, yeni məscidin idarəçiliyi Bakı Şəhər İcra Hakimiyyətində olacaq. Hətta BŞİG-dən Trend-ə verilən açıqlamada yeni məscidə təyinatlarla bağlı məlumat veriləcəyi bildirilirdi.**

Azərbaycanın ən iri məscidinin hələ də axund və imamsız olması müəyyən şübhələrə səbəb olub. Qeyd edək ki, əvvəlcə mətbuatda məsciddə şiələr üçün camaat namazını QMİ sədrinin müavini Fuad Nurullahın, sünni namazını isə yenə QMİ sədrinin müavini, müfti Salman Musayevin qılacağı haqda xəbər yayıldı. Ancaq buna baxmayaraq məlumat hələlik təsdiqini tapmayıb.

Ölkənin ən iri ibadət ocağının icmasının formalaşması və imam-camaat təyinatı hələ də ləngidiyi bir vaxtda məlum olub ki, paytaxtdakı sələfi icması yeni məscidə yerləşməyə çalışır. Belə ki, məlumatlara əsasən artıq vəhhabilərin bu məscidlə bağlı planı quraraq hər gün camaat namazına gedəcək qrup formalaşıb. Söhbət yüzlərlə insanlardan gedir.

**Bildirilir ki, 2008-ci ildə "Əbu Bəkr" məscidinin partladılmasından sonra Müşfiqabad, Qaraçuxur və İçərişəhərdəki məscidlərə toplaşan sələfi camaatı ibadət yerlərinin olmamasından şikayətlənir. İndi isə gələn məlumatlara görə, sələfi icması yeni məscidə toplaşmağı qərara alıblar. Bildirilir ki, sələfilər məsciddə özlərinin ayrıca öz imamlarının iştirakı ilə camaat namazı qılmaq niyyətindədirlər, imam şiə olsa, namaza qatılmayacaqlar:** "Onlar məscidə gəlib şiə camaat namazının bitməsini gözləyəcək və hətta hökumətin təyin etdiyi sünni imamın namazına qatılmayacaq, namaz bitdikdən sonra öz imamlarının iştirakı ilə camaat namazı qılacaqlar. Bu hər gün təkrarlanacaq. Məqsəd məscidi tam nəzarətə almaq, oradakı imamlara təsir göstərməkdir. Bu metod artıq təcrübədən keçib. Şamaxı tarixi Cümə məscidini prezident açılış etdikdən sonra sələfilər ora nüfuz etdilər. İndi orda hər gün camaat namazı qılanların 90 faizi vəhhabilərdir".

❑ **NATİQ**

## Prezident ehtiyat fondundan yol tikintisinə 3 milyon ayırdı

**Prezident İlham Əliyev Hacıqabul rayonunun Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda bildirilir:

**1.** On doqquz min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirən Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Hacıqabul Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin".

## Nəqliyyat Nazirliyinin vergi fırıldağı

**"Nəqliyyat Nazirliyi yük götürmə qabiliyyəti 1500 kq olan yük maşınlarına verilən lisenziyanı biz sürücülərə baha qiymətə satır". Bunu Avropa.info-ya göndərdiyi müraciətdə sürücü Teymur Kərimov yazıb. Sürücü bildirir ki, yük götürmə qabilyyəti 1500 kq olan yük maşınlara lisenziya 2 manat 50 qəpik olduğu halda, ondan hər il buna görə rüşvət alırlar. "Lisenziya sənədində əsl vergi 2 manat 50 qəpik göstərilir.**

Yəni mənə verilən lisenziyada yazılıb ki, vergi tutma məbləği 2 manat 50 qəpikdir. Lakin həmin göstərilən lisenziyanı mənə 2013-cü ildə 50 AZN-ə, 2014-cu ildə 60 manata və bu il isə daha 10 AZN qaldıraraq 70 AZN-ə satırlar. Belə görünür ki, hər il 10 AZN qalxır, ancaq sənəddə göstərilən vergi 2 manat 50 qəpik şəklində qalır. Nəzərə alsaq ki, mən tək deyiləm, minlərlə mənim kimi sürücü var, bu qədər artıq vəsaitin kimə və kimlərə, hansı büdcəyə getməsi maraq doğurur. Sizdən xahiş edirəm ki, bunu yazasınız artıq boğaza yığılmışıq. Belə görünür ki, bu rüşvət Nəqliuyyat Nazirliyində işləyənlərin cibinə axır".

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Fransa yeni terrorlarla sarsıldı - amma bu da son deyil...

**Yanvarın 7-də "Charlie Hebdo" jurnalına silahlı basqın edərək 12 nəfəri öldürən terrorçuların axtarışı Fransaya dərd üstünə dərd gətirib. Vaxtilə "əl-Qaidə" terror təşkilatının sıralarında olan Səid Kuaşi və qardaşı Şərif Kuaşinin həbsinin asan olmayacağı aydın idi, amma terrorçuların ələ keçməmək üçün daha bir dəhşətli olay törədəcəyini isə çoxları gözləmirdi.**

**Yanvarın 9-da Kuaşi qardaşları Fransanın Danmartin-en-golede şəhərində əvvəl avtomobil dayanacağında "Pejo" markalı avtomobili oğurlayıb iki nəfəri girov götürüblər.**

## "Charlie Hebdo" da qətliam törədənlər yenidən terrora əl atdılar; Parisdə marketdə 6 nəfəri girov götürən Kuaşi qardaşları öldürüldü; Eyfel qülləsi ətrafında atışma; dünya şokda...



Fransanın daxili işlər naziri bildirib ki, terrorçular polislə atışa-atışa bir zavod binasına sıxışdırılıblar. Terrorçular zavodda da 10-dan çox adamı girov götürüb. Cinayətkarların tutulması üçün polis səfərbər edilib, havaya vertolyotlar qaldırılıb. Ərazidə sakinlərin çölə çıxmasına qadağa qoyulub. Əməliyyata 90 min polis və əsgər cəlb olunub.

Ərazidəki məktəblər bağlanıb. Bundan sonra terrorçularla polis arasında saatlarla sürən danışıqlar başlayıb.

Terrorçu qardaşlar mühasirədə olarkən onlar haqda maraqlı məlumatlar yayılıb. 10 il əvvəl "Pittsburq Tribune" telekanalına verdiyi müsahibədə qardaşlardan biri, 22 yaşlı Şərif Kuaşi dindar olmadığını bildirərək, içki içdiyini, marixuana istifadə etdiyini, qız dostları ilə birlikdə yaşadığını və pitsaçı işlədiyini deyib. Daha sonra Kuaşi rep dediyi və rəqs etdiyi videonu da telekanala təqdim edib. Şərif Kuaşi 2005-ci ildə müsəlmanların İraqa döyüşə getməsinə yardımçı olduğu ittihamı ilə polis tərəfindən qısa müddətə həbs olunubmuş. Həmin müsahibə isə həbsdən çıxdıqdan sonra alınıb.

2008-ci ildə 18 ay həbs cəzasına məhkum edilən Kuaşi məhkəmədə hakimə bir supermarketdə çalışdığını, lakin əsl məşğuliyyət sahəsinin rep musiqisi olduğunu danışıb.

Kuaşi qardaşlarının adı 2010-cu ildə Əlcəzair İslam Ordusu silahlı qruplaşmasının bir üzvünü həbsdən qaçırmaq ittihamında çəkilib. Lakin yetərli dəlillər olmadığından qardaşlar həbs olunmayıblar.

Fransa prezidenti Fransua Olland ölkəsində terror aktlarının davam edə biləcəyini istisna etməyib.

APA-nın "Sabah"a istinadən verdiyi məlumata görə, "Charlie Hebdo" jurnalının redaksiyasına terror hücumunda şübhəli bilinən şəxslərin saxlanılması məqsədi ilə keçirilən əməliyyata rəhbərlik edən F.Olland "hücum edən şəxslər hələ tutulmayıb, əməliyyat davam edir. Hazırda əlimizdən gələn edirik, ölkəmizi qorumağa çalışırıq", - deyə Fransa prezidenti qeyd edib.

O bildirib ki, dekabr ayından indiyədək müxtəlif kəşfiyyat məlumatları əldə olunub. F.Olanda Fransanın yeni hücumlarla üzləşəcəyini istisna etməyib: "Bu hücumlardan sonra müxtəlif bölgələrdə nümayişlər olacaq. Buralarda təhlükəsizlik təmin olunmalıdır və xalqımız terrora qarşı mövqeyini ortaya qoymalıdır. Təkcə Parisdə deyil, kəndlərdə belə nümayişlər keçirilir. Hər kəs terrora qarşı bir olmalıdır. Fransa güclü dövlətdir, biz öz vətəndaşlarımızı qoruyacağıq".

Fransa Daxili İşlər Nazirliyi 20-ci sahədəki mağazada insanları girov götürməkdə şübhəli bilinən şəxsləri axtarışa verib. "The Guardian" qəzeti xəbər verir ki, bunlar Həyat Bumeddyen adlı,1988-ci il təvəllüdlü qız və 1982-ci il təvəllüdlü qaradərili gənc Amedi Kulibalidir.

***

Terrorçu qardaşların təslim olması üçün danışıqlar aparılarkən Fransa daha bir terror olayı ilə sarsılıb. Bu dəfə Parisdə naməlum şəxs aralarında qadınlar və uşaqlar olmaqla bir neçə adamı girov götürüb.

Hadisə yəhudilər üçün nəzərdə tutulan mağazada baş verib. Atışma zamanı bir nəfər yaralanıb. Fransa mətbuatı həmin şəxsin Paris qətliamından bir gün sonra qadın polisi öldürən şəxslə eyni adam olduğunu yazıb. "The Guardian"ın yazdığına görə isə mağazada beş nəfəri girov götürən şəxs və "Charlie Hebdo"da terror törədən qardaşlar bir-birilərini tanıyırlar.

Bundan başqa, girovları götürən şəxsin hadisə zamanı polislərə qışqıraraq "siz bilirsiniz mən kiməm", - dediyi məlum olub.

Axşam saatlarında isə Paris polisi metronun şəhərin mərkəzində - Eyfel qülləsinin yaxınlığında yerləşən "Trokadero"



stansiyasını bağlayıb, şəhərdə atışma gedib.

Virtualaz.org saytı "Le Mond" qəzetinə istinadən xəbər verir ki, metrodakı sərnişinlərin evakuasiyasına başlanılıb. Yerli KİV belə ehtimal edir ki, burada söhbət yeni terror aktı təhlükəsindən gedə bilər.

****

"Hizbullah" lideri Hasan Nəsrullah bir müraciət yayınlayaraq, baş verən terror olaylarını kəskin pisləyib. O, deyib ki, bu hadisələr İslama karikaturaların verdiyi zərərdən daha çox zərbədir.

Qeyd edək ki, Fransada, eləcə də dünyanın bir çox ölkələrindəki islam liderləri Paris terrorlarını qınayan mövqe nümayiş etdiriblər.

**Avropa informasiya qaynaqları məlumat yaydı ki, yəhudilərin girov götürüldüyü mağazada iki nəfər öldürülüb.**

Gecə saatlarında Fransa polisi tərəfindən mühasirəyə alınan marketdə 6 girovun olduğu açıqlanıb. Az sonra isə Fransa polisi mağazada girov götürülənləri azad etməyə müvəffəq olub. Musavat.com-un xarici qaynağa istinadən verdiyi məlumata görə, 6 nəfəri girov götürən Kuaşi qardaşları öldürülüb. Girovlar arasında itki olmadığı bildirilir. Xatırladaq ki, Əlcəzair əsilli Kuaşi qardaşları yanvarın 7-də 12 nəfərin qətli nəticələnən Parisdəki satirik jurnala hücumun əsas icraçıları sayılırlar.

❑ **"Yeni Müsavat"**

# Qaradağdakı qətlin şok təfərrüatları

# "Standartbank"ın işçisi iki qardaşı namus üstə öldürüb - versiya

## Qanlı olayla bağlı müdhiş detallar ortaya çıxdı; Sahil qəsəbəsinin sakinlərinin iddiası: "Zaur Tərlanov arvadının Rəhimov qardaşlarından biri ilə münasibətindən şübhələnib"; öldürülən gənclərin anası yüksək faizlə sələmə pul verirmiş, olayda bu amilin də rol oynaya biləcəyi barəsində ehtimallar var

**Yanvarın 8-də axşam saatlarında Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində baş verən dəhşətli qətl hadisənin şok pərdəarxası məqamları ortaya çıxıb. Artıq hadisəni törədən və öldürülən qardaşların kimliyi məlum olub.**

Qətli törədən 1984-cü il təvəllüdlü Zaur Ənvər oğlu Tərlanovdur. Öldürülən qardaşlar 1985-ci il təvəllüdlü Cahid və 1980-ci il təvəllüdlü Cavid Rəhimovlardır. Qardaşları gülləyən Zaur Tərlanov könüllü olaraq 38-ci polis bölməsinə təslim olub. Hadisənin qısqanclıq zəminində baş verdiyi deyilsə də, Sahil qəsəbəsinin sakinləri arasında keçirdiyimiz sorğu qətllə bağlı şübhəli detallar ortaya çıxardı.

Məlum oldu ki, qətldə şübhəli bilinən Zaur Tərlanov "Standartbank"ın Qaradağ rayonunda yerləşən filialının işçisi olub. Öldürülən qardaşlar isə, Dərin Özüllər Zavodunun işçiləri olublar.

Sakinlər qətlin qısqanclıqla bağlı baş verməsi fikrini təsdiqlədilər. Adının çəkilməsini istəməyən qəsəbə sakininin "Yeni Müsavat"a verdiyi məlumata görə, güllənən qardaşlardan birinin Zaur Tərlanovun həyat yoldaşı ilə yaxın əlaqələri olub. Zaur bununla bağlı qardaşları görüşə çağırıb. Söhbət zamanı qətllə yetirilən qardaşlar Zaura hədə-qorxu gəliblər.

**Yanvarın 8-də axşam saatlarında Zaur Tərlanov işdən qayıdan qardaşların "Toyota Land Cruiser" markalı maşınının (dövlət nömrə nişanı 90 RC 008) qarşısını kəsərək, odlu silahla atəş açıb. Sakinlər onu da dedilər ki, qətli törədənlə qətlə yetirilənlər Sahil qəsəbəsinin sakinləri olublar.**

Araşdırmalarımız zamanı qətllə bağlı səsləndirilən versiyalara kölgə salacaq faktlar ortaya çıxdı. Belə ki, öldürülən qardaşların anası Nigar Rəhimova yüksək məbləğdə faizlə borca pul verirmiş. Bununla bağlı dəfələrlə narazılıqlar olub. Hətta bir il öncə faizi ödəyə bilmədiyinə görə, qəsəbədə yaşayan bir gəlin özünü yandırıbmış. Qəsəbə sakinləri Rəhimovlar ailəsinin zülmündən təngə gəldiklərini də qeyd etdilər. Deyilənə görə, öldürülən qardaşların ailə həddən artıq imkanlı olub. Onların şəhərin müxtəlif yerlərində evlərinin olduğunu bildirilir.

Hər iki ailə arasında əvvəllər yaxın münasibətlər mövcud olub. Hətta qətli törətməkdə şübhəli bilinən Zaur Tərlanovun bankdan aşağı faizlə Rəhimovlar ailəsinə pul təşkil etdiyi və onların həmin pulları yüksək faizlə dövriyyə buraxdıqları da iddia edilir. Sonralar hər iki ailə arasında münasibətlər pozulub. Zaurun toyunda da qardaşların anası və özləri iştirak ediblər.

**Güllənən qardaşların və Zaur Tərlanovun ataları Dərin Özülləri Zavodunda bir yerdə işləyiblər.** Sakinlər onu da bildirdilər ki, əvvəllər onlar arasında narazılıqlar olub. Zaur dəfələrlə həyat yoldaşını yaylan xəbərlərə görə döyüb. Qətli törədən şəxsin xanımı ilə adı hallanan qardaşlardan biri Zaura bu xəbərlərin şayiə olduğunu deyib. Hətta sakinlər bildirdilər ki, qadını qardaşların hər hansı biri ilə əlaqəsinin olub-olmadığını müəyyən etmək üçün həkim müayinəsindən də keçiriblər.

Araşdırma apardığımız zaman Zaur Tərlanovun Bakının mərkəzindən ev aldığı və xanımının orada yaşadığı da ortaya çıxdı. Onun yoldaşının əvvəllər Saray qəsəbəsində yaşadığı deyilir.




**Qətlə yetirilən hər iki qardaş evli olublar. Cahid və Cavid Rəhimovlar yanvarın 9-da dəfn olunublar.**

38-ci polis bölməsi ilə əlaqə saxladıq. Bölmədən bildirdilər ki, yanvarın 8-də gecə saatlarında Zaur Tərlanov Qaradağ rayon Prokurorluğuna aparılıb. Prokurorluğun bu barədə mövqeyini öyrənməyə çalışdıq. Nə qədər qəribə olsa oradan bildirdilər ki, açıqlama almaq üçün prokurorluğunun binasına yaxınlaşmaq lazımdır.

**Sonda onu qeyd edək ki, Baş Prokurorluq Qaradağ rayonunda törədilmiş qətllə bağlı məlumat yayıb.** Prokurorluqdan musavat.com-a daxil olan məlumatda bildirilir: "Yanvarın 8-də saat 17 radələrində Qaradağ rayonu, Sahil qəsəbəsində yaşayan Zaur Tərlanov aralarında yaranmış mübahisə zəminində özünə məxsus "Vinçester" markalı odlu silahdan Sahil qəsəbəsinin girişində yolun kənarında dayanmış "Leksus" markalı avtomobilin içərisində oturmuş həmin qəsəbə sakinləri Cavid və Cahid Rəhimov qardaşlarına bir neçə dəfə atəş açaraq onları qəsdən öldürüb hadisə yerindən qaçıb. Daxil olmuş məlumat əsasında dərhal hadisə yerinə və meyitlərə baxış keçirilib, maddi sübutlar götürülüb, digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. Faktla bağlı Qaradağ rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanaraq müvafiq ekspertizalar təyin edilib. Rayon Polis İdarəsi və prokurorluğun əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Z.Tərlanov tutularaq istintaqa cəlb edilib. Hazırda iş üzrə istintaq davam etdirilir".

**Mövzunu davam etdirəcəyik.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015



# Parisi dağıdan cəhalət

**Azər RƏŞİDOĞLU**

**Fransada baş verən son terror yenidən sivilizasiyalar toqquşması kimi dəyərləndirildi. Fransızların müsəlmanlara, xüsusən də türklərə və ərəblərə qarşı əsrlər boyunca dözülməz münasibəti barədə deyilənlər bir həqiqətdir.**

Lakin öz ölkələrindəki diktatura, aclıq, səfalətdən yaxa qurtarmaq üçün Qərb ölkələrinə sığınan müsəlman mənşəli insanlarla orta statistik avropalılar arasında yaşanan qarşıdurma barədə düşünməyə dəyər. Son terror olayı isə açıq təxribata bənzəyir. Bunun arxasında elə Fransa xüsusi təhlükəsizlik xidmətlərinin dura biləcəyi də istisna deyil. Yenə də ənənəvi yanaşma meydana çıxır - cinayəti törədənlər bu məsələdə maraqlı olanlardır. Odur ki, baş verənlərdə islamçıları ittiham etdirmək olduqca tezdir. İslamafoblar üçün bu hadisə bir bəhanə oldu. Lakin bu ayrı bir araşdırma mövzusudur.

Fransa yalnız Əlcəzairdə törətdiyi soyqırımı ilə yadda qalmayıb. Bu ölkə Qərb mədəniyyətinin beşiyi hesab edilə bilər. Əlcəzairdə doğulan, Fransaya Nobel mükafatı gətirən ekzistensializmin parlaq nümayəndəsi Alber Kamyu, böyük humanist Viktor Hüqo, tarixi romanlar müəllifi Aleksandr Düma, elmi fantaziyanın yaradıcılarından olan Jül Vern, hamının sevimlisi Onere de Balzak Fransa mədəniyyətinin nümayəndəsidir. Mane, Qoqen kimi rəssamlar, Moris Ravel kimi bəstəkar, Jo Dassen, Mirey Matye kimi müğənnilər, Jan Pol Belmando, Jan Qaben, Alen Delon aktyorlar, Blez Paskal, Andre - Mari Amper kimi alimlər, Jozef Fuşe, Napoleon, Pobespyer, Taleyran kimi siyasətçilər, ekzistensializmin banisi Jan Pol Şarl Sartr kimi filosof Fransadan çıxıb.

Fransa dahilər ölkəsidir. Götürək, Evarist Qaluanı. Cəmi 20 il, 6 ay yaşamaqla zəngin bir bioqrafiya nümunəsi qoya bilib. Qalua riyaziyyat sahəsində köhnə təsəvvürləri alt-üst edib. 19 yaşında öz aksiomlarını irəli sürüb, teoremləri sübuta yetirib. Bu gün müxtəlif rəqəmsal televiziya kanallarında informasiyaların rabitə kanalları vasitəsilə ötürülməsi onun kəşflərinin töhfəsidir. Halbuki, Qalua televiziya əsrinin gələcəyini heç ağlına da gətirməzdi. Bu gün onun yaratdığı qruplar nəzəriyyəsi riyaziyyatda “Qalua sahəsi” adlanır.

Bu ölkənin tarixində nələrisə bəyənməmək olar və bəlkə də vacibdir. Fransanı əlcəzairliləri qırdığına görə lənətləmək də olar. Lakin bu ölkənin bəşəriyyət üçün etdiklərini unutmaq ədalətsizlik olardı.

Fransa və ya digər Avropa ölkələrinə Yaxın Şərqdən köçənlər anlamalıdırlar ki, ayrı bir sivilizasiyada yaşamağa başlayıblar və yaşadıqları mühitə hörmət etməlidirlər. Fələstində, Yaxın Şərqdə tökülən qanların əvəzini yalnız dünyaya dühalar bəxş etməklə çıxmaq olar. Fransız xalqı bunu edə bildi. İslam dünyası da bunu etməyi bacarmalıdır. Bunun üçün zəmin də mövcuddur.

Bu gün Avropa islam alimlərinin kəşflərinə minnətdar olmalıdır. 8-ci əsrdə ilk kağız fabrikini yaradan İbn Fazil, tibbidə çevriliş edən Ibn Sina, 15-ci əsrdə mikrobun mövcudluğunu kəşf edən Ağ Şəmsəddin, 10-cu əsrdə cüzamı müalicə edən İbn Cəssar, 14-cü əsrdə vəba xəstəliyinin müalicəsində inqilab edən İbn Hatil, 12-ci əsrdə bir çox xəstəliklərə əlac tapan İbn Ruşd və Əli ibn İsa, cərrahiyə sahəsində elmi çevriliş edən Əbu Qasim Zəkravi, riyaziyyatda 8-ci əsrdə böyük nailiyyət qazanan Harizmi , bu sahənin ən böyük siması olan Bəttani, Əbul Vəfa (9-cu əsr), astronomiyada Maşallah (9-cu əsr), fizikada Fərabi (10-cu əsr), kimyada Cabir ibn Hayyan (8-ci əsr), 13-cü əsrdə Nəsrəddin Tusi, coğrafiyada Biruni (10-cu əsr), fəlsəfədə ibn Haldun (15-cu əsr) və onlarla başqaları öz elmləri ilə bəşəriyyətə başucalığı qazandırıblar.

Bu gün Qərbdə bu insanları unudublar. Bir neçə zəkasız insana görə müsəlman dünyası terrorla assosiasiya edilir. Bunun bir günahı da elə müsəlman dünyasının özündədir. Diktatorlar sayəsində təhsilsiz, elmsiz qalan toplumların sonu faciəli olur.

Güclü olmaq elmlə olur. Kimin üstün olması yalnız elmdə, mədəniyyətdə müzakirə predmeti ola bilər. Elm və təhsil olan yerdə isə terrora yer qalmır...

# Azərbaycanda qəzet redaksiyaları necə qorunur?

**Fransanın paytaxtı Parisdə “Şarli Ebdo” jurnalının nəşriyyat binasına edilən terror hücumu dünya mətbuatının gündəmini silkələdi. 3 naməlum silahlının İŞİD qruplaşmasının lideri Əbubəkr əl Bağdadinin karikaturasını dərc edən “Şarli Ebdo” jurnalının redaksiyasına daxil olaraq 8-i jurnalist olmaqla 12 nəfəri öldürməsi sıravi jurnalistdən dünya liderlərinə kimi hər kəsin etirazına səbəb oldu.**



**Aynur Camal:**
“Redaksiyalarımızda mühafizə xidməti yüksək səviyyədə qurulmayıb”



**Nurşən Quliyev:**
“Bizim mühafizəçiləri silahla təchiz etmək imkanımız yoxdur”



**Bəxtiyar Sadıqov:**
“Dövlət hər bir jurnalistə mühafizə ayıra bilməz ki”



**Azər Ayxan:**
“Redaksiyaların mühafizə işini dövlət öz üzərinə götürməlidir”

Avropanın, eləcə də dünyanın ən güclü dövlətlərindən biri olan Fransa paytaxtının elə bir hadisə ilə gündəmə gəlməsi, digər ölkələrdə də mətbuat orqanlarının mühafizəsi məsələsini aktuallaşdırdı.

Azərbaycanda da hər gün mediada müxtəlif terror təşkilatları haqqında materiallar verilir. İŞİD terror təşkilatının bir qolunun Azərbaycana qədər uzandığı isə heç kimə sirr deyil. Son zamanlar Milli Təhlükəsizlik Nazirliyinin həyata keçirdiyi əməliyyatlar zamanı müxtəlif silahlı qruplaşma üzvlərinin həbsi də bunu təsdiqləyir.

*Bəs, görəsən belə bir halda Azərbaycanda qəzet, sayt redaksiyaları baş verəcək hücumlara qarşı nə qədər sığortalanıb. Redaksiyalar mühafizə işində peşəkarların xidmətindən faydalanırlarmı?*

Media orqanlarının rəhbərləri arasında apardığımız sorğu göstərdi ki, “Azərbaycan” nəşriyyatı istisna olmaqla heç bir redaksiya mühafizə olunmur.

**“Gündəlik Teleqraf” qəzetinin baş redaktoru Aynur Camal** “Yeni Müsavat”a açıqlamasında redaksiyaların mühafizə işində peşəkarlardan faydalanmalı olduğunu vurğuladı: “Təəssüf ki, redaksiyalarımızda mühafizə xidməti yüksək səviyyədə qurulmayıb, bu sahədə problemlər mövcuddur. Həmin problemi biz təxminən bir il bundan əvvəl yaşadıq. Bir tərbiyəsiz qoçu gəlib redaksiyamızda əməkdaşımızı döyüb getmişdi. Buna görə də, düşünürəm ki, mətbu orqanlarının redaksiyasında mühafizə xidməti güclü şəkildə qurulmalıdır. Bununla məşğul olan xüsusi şirkətlərlə müqavilə bağlayıb bu işi onlara həvalə etmək daha doğru olar”.

**“APA Holding” MMC-nin Direktorlar Şurasının sədri Nurşən Quliyev** qeyd etdi ki, onlar da mühafizə işində peşəkarlardan faydalanmırlar: “Bizdə mühafizə xidməti var. Holdinqin öz imkanları hesabına biz bunu təşkil etmişik. Bizim onları silahla təchiz etmək imkanımız yoxdur. Sadəcə adi qaydada mühafizə olunuruq. Ancaq təəssüf ki, bu sahədə peşəkarların xidmətindən istifadə etmirik. Bununla belə fəaliyyət göstərdiyi müddət ərzində ”APA Holding"ə hər hansı hücum və ya basqın olmayıb"

**“Azərbaycan” qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov** “Azərbaycan” nəşriyyatının polis tərəfindən mühafizə edildiyini və hər hansı təhlükə gözləmədiklərini qeyd etdi: “Çox şükür ki, uzun müddətdir Azərbaycanda yazdığı yazıya görə jurnalistin zorakılığa məruz qalması faktı müşahidə olunmur. Əvvəlki illərdə belə hallar bir neçə dəfə baş verdi, jurnalistlər fiziki zorakılığa məruz qaldılar. Ancaq bu, birmənalı olaraq hamı tərəfindən qınandı. Biz bu məsələləri dəfələrlə Mətbuat Şurasında müzakirəyə çıxartmışıq. Artıq Azərbaycan mətbuatı da insanların şərəf və ləyaqətini təhqir etməkdən çəkinir, peşə-davranış qaydalarına əməl edirlər.

Söhbət “Azərbaycan” nəşriyyatından gedirsə bura gecə-gündüz polis tərəfindən mühafizə olunur, giriş vərəqəsi və icazəsi olmayan şəxslər içəri buraxılmır. Burada heç vaxt zorakılıq faktı müşahidə olunmayıb. Bütövlükdə isə hər jurnalistə bir cangüdən təhkim etmək mümkün deyil. Çünki jurnalistin iş yeri otaq deyil, hadisə yeridir, tədbirlərdir. Ona görə də, jurnalistlər ehtiyatlı olmalı, yazılarında etik prinsiplərə əməl etməli, insanların şərəf və ləyaqətinə, dini hisslərinə toxunmamalıdırlar.

**“Azadlıq” qəzetinin redaktoru Sücəddin Şərif** heç bir redaksiyanın bu kimi terror hücumlarından sığortalanmadığını vurğuladı: “Bu hadisə Fransa kimi bir dövlətdə, Avropanın ən böyük şəhərinin mərkəzində baş verirsə, deməli, digər mühafizə sistemi, təhlükəsizliyi zəif olan ölkələrdə də heç kim bundan sığortalanmayıb. Konkret olaraq ”Azadlıq" qəzetinə gəldikdə isə, bizim redaksiyamız “Azərbaycan” nəşriyyatında yerləşir və bura mütəmadi polis mühafizəsi ilə təmin olunub. Bizim hansısa mühafizə təşkil etmək imkanımız xaricindədir. Biz nəşriyyata köçməmişdən əvvəl bir neçə dəfə belə hallar baş verib. Ancaq nəşriyyatın binasına gələndən sonra belə hal müşahidə etməmişik. Burada onlarla redaksiya yerləşir. Düşünürəm ki, bu məsələlərdə dövlət qurumlarının da üzərinə vəzifələr düşür.

**“Yeni Müsavat” qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan** bildirdi ki, bu məsələdə dövlətin mətbuata dəstəyi önəmlidir: “Redaksiyamızda xüsusi mühafizə dəstəsi yoxdur. Texniki əməkdaşlarımız tərəfindən redaksiyaya gələn şəxslərə nəzarət olunur. Onların əksəriyyəti şikayətçilər, hüquqları pozulan vətəndaşlar olur. Buna baxmayaraq biz redaksiyanın hədəfdə ola biləcəyini və təhlükələri nəzərə alıb girişi xüsusi seyf qapısı ilə təchiz etmişik. Ancaq terror məqsədilə gələn şəxslər bunu icra etmək üçün hər varianta əl ata bilərlər. ”Yeni Müsavat" qəzeti də bir neçə dəfə hücuma məruz qalıb. İndi isə təhlükə daha çox xarici terror qruplarından gəlir".

**A.Ayxan bildirdi ki, redaksiyaların mühafizəsi təkcə qəzet kollektivlərinin qayğısı olmamalıdır:** “Dövlətin bu məsələyə ciddi yanaşmasına ehtiyac var. Jurnalist də dövlətin vətəndaşıdır və reaksiyaya edilən hər hansı basqın həmin dövlətin sütunlarını sarsıdır. Fransa kimi nəhəng dövlətin paytaxtında olan terror hadisəsi, baxın, bu ölkəni nə günə saldı. Hökumət nə qədər müstəqil mətbuatı sevməsə də sırf terror faktı baxımından bu məsələdə hər şeyi bir kənara atmalı, vətəndaşı olan jurnalistlərin təhlükəsizliyini təmin etməlidir. Redaksiyaların mühafizə işini rəsmi qurumlar öz üzərinə götürməlidir”.

❑ Nərgiz LİFTİYEVA

# “Hansı redaksiya bədgümandırsa, özəl mühafizə xidmətinə müraciət edə bilər”

## Sabiq MTN polkovniki hesab edir ki, ölkəmizdə indiki situasiyada mətbu orqanların belə hücuma məruz qalması üçün şərait yoxdur

**Parisdə jurnalist qətliamı Azərbaycanda redaksiyaların mühafizəsi məsələsini gündəmə gətirib. Çünki zaman-zaman redaksiyalara basqın olub, jurnalistlərə hücum edilib, onlara xəsarət yetirilib. Bu gün redaksiyalar isə mühafizə olunmur. Halbuki, ayrı-ayrı vaxtlarda redaksiyaların mühafizəsi müzakirə olunub, amma real addım atılmayıb. Təhlükəsizlik Araşdırmaları Mərkəzinin rəhbəri, Milli Təhlükəsizlik Nazirliyinin sabiq polkovniki İlham İsmayıl hesab edir ki, indiki şəraitdə bu mümkün deyil.**



Sabiq polkovnikin fikrincə, əgər hər hansı redaksiya bədgümandırsa, özəl mühafizə xidmətinin təşkili üçün müraciət edə bilər. İ.İsmayılın sözlərinə görə, dövlət jurnalistlərin, redaksiyaların mühafizəsini təşkil etmir: “İndiki situasiyada mətbu orqanların belə hücuma məruz qalması üçün şərait yoxdur. Amma təhdid və ya təhlükə varsa, redaksiya polisə müraciət edə bilər ki, onun təhlükəsizliyi təmin edilsin. Eyni zamanda stasionar əməliyyat təhlükəsizliyi təmin edilə bilər”.

**Ekspert xüsusi xidmət orqanları tərəfindən redaksiyaların ayrıca mühafizə olunmadığını bildirdi:** “Vətəndaşların təhlükəsizliyi tərkibində jurnalist də bir vətəndaş kimi mühafizə edilir. Əslində Rafiq Tağı, Elmar Hüseynov əvvəldən müraciətlər etməliydi. Parisdə satirik jurnalın fəaliyyəti ilə bağlı təhdidlər var idi. Hətta baş redaktora mühafizə üçün polis ayrılmışdı. Ona görə də bu gün redaksiyaların mühafizəsi ilə bağlı yalnız fərdi şəkildə təhlükə varsa, müraciət oluna bilər, yaxud da özəl mühafizə xidməti ilə müqavilə bağlamaq olar”.

❑ E.SALAMOĞLU

YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015

## Milli Məclisin xanım vitse-spikerindən "Yeni Müsavat"a ilginc açıqlamalar

# "Onlar müxtəlif dairələr qarşısında öhdəlik götürüb"

**Bahar Muradova:** "İlham Əliyevin və bizim XİN rəsmilərinin bu məsələ ilə bağlı açıqladığı fikirlər ciddiliyinə, əsaslılığına, söykəndiyi arqumentlərə görə heç də Obamanın fikirlərindən geri qalmır"



**Qış tətili olmasına baxmayaraq, Milli Məclisin sədr müavini Bahar Muradova yenə də iş başındaydı. Bunun səbəbini soruşduqda gülərək dedi ki, işsiz qalmağa adət etməyib. İl ərzində yalnız yay tətilində bir-iki həftə dincəlir, qalan vaxtlar isə iş yerində olur. Üstəlik, deputatların tətildə olmasına baxmayaraq, Milli Məclis Aparatı daim işlədiyindən o da günlərini daha səmərəli fəaliyyətə həsr edir. Söhbətimiz Bakının qarlı-şaxtalı qış gününə təsadüf etdiyindən əvvəlcə paytaxtda müşahidə etdiyimiz problemlərlə bağlı soruşduq.**

***- Bahar xanım, qarın yağmasından sonra yollardakı vəziyyətə görə əksər paytaxt sakinləri şikayətçidir. Sizin üçün necə, belə sərt havada, buzlu yollarla işə gəlmək çətin olmadı ki?***

- Şəhərin mərkəzində qar az idi, ancaq yuxarı qalxdıqca gördüm ki, Milli Məclis tərəfdə daha çoxdur. Ümumiyyətlə, Yasamal tərəfə həmişə daha çox qar yağır. Bir az ehtiyatla, amma rahat gəldik.

***- Qış hazırlıqlarının olması haqda rəsmi açıqlamalar verilsə də, az miqdarda qarın yağması, temperaturun düşməsi ilə yollarda xeyli problemlər üzə çıxdı. Bunu normal saymaq olarmı?***

- Belə yanaşma hər zaman ədalətli olmur. Çünki buna qədər də ən müxtəlif ölkələrdə elə ilk qarın yağdığı zaman problemlərin yarandığını oxumuşuq. Bakıda fərqli situasiyanın olduğunu düşünmürəm. Bakının fərqli şəraitinin özü onun fərqli relyefində ola bilər. Hazırlığın səviyyəsini qiymətləndirərkən siz bunu ancaq müvafiq qurumlara aid edirsiniz. Ancaq mən hər bir kəsin qışa hazırlıqsız olduğunu düşünürəm. Çünki il ərzində uzağı 2-3 dəfə qarla üzləşirik və qarlı havaya uyğun hazırlıqlara adət etmirik. Mən daha çox dövlət qurumlarını deyil, ayrı-ayrı şəxsləri, xidmət sahələri, mağaza, ən müxtəlif ictimai iaşə obyektlərinin bu məsələyə hazırlıqlı olmadığı fikrini bölüşürəm. Mən elə yolla gələrkən cəmi bir mağazanın qarşısında onlara aid hissənin təmizliyi ilə məşğul olanları gördüm. Ancaq keçdiyim küçədə müvafiq şəhər qurumları özlərinə aid işi görmüşdülər, yol açıq idi, maşınlar hərəkət edirdi. Xırda obyektlərin isə sadəcə qapıları bağlıydı, qar necə yağmışdısa, eləcə də qalmışdı. Heç olmasa bu obyektlərə gələcək vətəndaşların durumu ilə maraqlanmır, işçilərinin işə sərbəst gəlib-getmələri haqda düşünmürlər. Məncə, KİV də bu məsələni gündəmdə saxlamalı, iş adamlarını hazırlıqlı olmağa, onları şəhər qurumlarına köməklik göstərməyə çağırmalıdır. Hər bir obyektdə bir neçə qartəmizləyən bel, kürək olsa və bir az da vərdiş formalaşdırsa, şəhərimiz belə havalarda hər kəs üçün təhlükəsiz və rahat olar.

***- Soyuq havadan söz düşmüşkən, ABŞ-Azərbaycan arasındakı soyuq münasibətlər 2015-ə də adladı, üstəlik kəskin müstəviyə keçib. "Nə baş verir" sualına sizdə hansı cavab var?***

- Azərbaycanla Amerika arasındakı münasibətlərin sizin dediyiniz və yaxud mətbuatda əksini tapan səviyyədə pozulması, kəskinləşməsi barədə deyilənlərlə razılaşa bilmərəm. Azərbaycanla ABŞ strateji müttəfiqdir və biz bir sıra sahələr üzrə əməkdaşlıq edirik. Çalışırıq ki, üzərimizə götürdüyümüz öhdəlikləri həmin əməkdaşlığın məzmununa, imzaladığımız sənədlərə uyğun həyata keçirək. Azərbaycan öz tərəfindən bütün bu addımları atır. ABŞ-ın rəhbərliyi, yüksək dövlət qurumları tərəfindən bu əməkdaşlığın pozulması, yaxud münasibətlərin ciddi şəkildə kəskinləşməsi, siz dediyiniz kimi soyuqluğun yaranması ilə bağlı fikirləri eşitməmişəm.

***- Amma Obama səviyyəsində Azərbaycanın adı hüquqların pozulduğu ölkələr sırasında çəkildi...***

- Bilirsiniz, Obama tərəfindən belə fikirlər səsləndi, İlham Əliyev tərəfindən də fərqli fikirlər səsləndi. Biz nəyə görə yalnız Obamanın fikirlərini şərh etməli, yaxud doğruluğu qənaətində olmalıyıq? Bu və ya digər fikir mübadiləsi ekspertlər, millət vəkilləri, adi vətəndaşlar tərəfindən getdiyi kimi, ölkə rəsmiləri tərəfindən də gedir. Elə siyasət də budur. Çox yaxşı ki, ölkə rəsmiləri səviyyəsində də bu və ya digər məsələ ilə bağlı narahatlıq açıq şəkildə ifadə olunur. Bir tərəf hansısa narahatlığını ifadə etdiyi təqdirdə, əks tərəf də öz mövqeyini ifadə etmək imkanı qazanır. Ona görə də İlham Əliyevin və bizim XİN rəsmilərinin bu məsələ ilə bağlı açıqladığı fikirlər ciddiliyinə, əsaslılığına, söykəndiyi arqumentlərə görə heç də Obamanın fikirlərindən geri qalmır. Amma söylənilən fikirlərdən sonra mən Obamadan bunun doğru olmadığı barədə ikinci bir fikir eşitməmişəm.

***- Dövlət başçısı səviyyəsində digər bir ölkədəki problemlərdən bəhs olunursa, bu, artıq həmin dövlətlər arasında problemlərin yaşandığını demək üçün yetərli deyilmi? Obamanın adbaad tənqid etdiyi ölkələr arasında Azərbaycanın olması narahat olmağa əsas yaratmırmı?***

- Təbii ki, bu, narahat etməlidir. Ancaq bu, o demək deyil ki, söylənilən fikirlər yüzdə-yüz doğrudur. Amerikanın siyasətində təkcə Azərbaycan deyil, müxtəlif ölkələr, regionlar haqqında zaman-zaman bir-birinə zidd fikirlərə rast gəlinib. Bu da ümumilikdə ABŞ-ın bəzi vaxtlarda siyasi, iqtisadi, hərbi maraqlarına xidmət edir.

***- Azərbaycan antiterror koalisiyadadır, ABŞ-ın hərbi maraqları təmin olunur. Enerji məsələlərində də əməkdaşlıq var. Azərbaycanın Rusiyaya üz tutmasından dolayı Vaşinqtonda narahatlıq ola bilərmi?***

- "Azərbaycan Amerikaya, ya Rusiyaya doğru üz tutub" fikri ilə razılaşa bilmərəm. Çünki biz beynəlxalq ictimaiyyətin üzvüyük. Hər bir ölkənin ciddi marağındadır ki, dünya ölkələrinin böyük, ya kiçikliyindən asılı olmayaraq, hər biri ilə normal münasibətlər qursun. Biz ABŞ-la da münasibətlərimizdə bu prinsipi əsas tuturuq, Rusiya ilə də. Bir də nəzərə alaq ki, bu iki ölkə həm Təhlükəsizlik Şurasının, həm də Minsk Qrupunun üzvüdür. Mən bunun üzərinə Fransanı da gələrdim. Bu 3 ölkə ilə münasibətlərimizdə biz heç zaman biri ilə olan münasibətləri digərinə qarşı qoymuruq və bu cür yanaşmaları da qəbul etmirik. Biz ən azı Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, ədalətli mövqeyinin qəbul olunması istiqamətində bu 3 ölkə ilə bərabərhüquqlu tərəfdaşlığa, beynəlxalq hüququn prinsiplərinə, qarşılıqlı maraqlara uyğun və Azərbaycanın milli, dövləti maraqlarına uyğun siyasət aparmalıyıq, aparırıq da. Bu, necə görünür, kim bunu necə dəyərləndirir, bu, onun öz işidir. Amma bu da bir faktdır ki, heç vaxt yürüdülən siyasət bütün incəliyinə qədər açıqlanmır.

***- Deməli, sizin üçün aydın deyil ki, ABŞ Azərbaycana niyə bu münasibəti sərgiləyir?***

- Qəti şəkildə bunun səbəbini söyləyə bilmərəm. Əgər sizin imkanınız çatırsa, Amerikanın müvafiq rəsmilərinə müraciət edin, bu və ya digər məsələdə niyə belə mövqe tutduqlarının əsl səbəbini onlardan soruşun. Mənim üçün də maraqlıdır ki, onlar niyə belə etdiklərini söyləsinlər. Mənim müəyyən qənaətlərim var, amma heç də onların hamısını mətbuata açıqlamaq fikrində deyiləm. Mətbuatda o qədər bir-birinə zidd mövqelərə rast gəlirik ki, bunların hər hansı birini aparıcı saymaq olmaz. Amma Qarabağ məsələsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün bizim ümumi mövqeyimizin ifadə olunması ilə bağlı konkret iradə var, bu iradəni heç də Amerika daxil, bir sıra beynəlxalq dairələr qəbul etmək istəmir. Bu, faktdır. Əks təqdirdə necə qiymətləndirmək olar ki, ABŞ, onun Senatı, Dövlət Departamenti də daxil, ən müxtəlif qurumları, vətəndaş cəmiyyətinin nümayəndələri Ukraynadakı hadisələri bir şəkildə qarşılayır, Qarabağla bağlı məsələləri başqa şəkildə. Bəzi hallarda bunu erməni lobbisinin güclü olması, yaxud bizim zəif işləməyimizlə əlaqələndirə bilərlər. Amma beynəlxalq fəaliyyətdə olan bir adam kimi mən bunu qəti şəkildə inkar edirəm. Mən dəqiq bilirəm ki, Amerika cəmiyyəti və rəsmi dairələri Azərbaycan ərazilərinin işğal altında olduğunu çox gözəl bilir. Burda ən müxtəlif maraqları, xristian-müsəlman faktoru var. Baxmayaraq ki, Azərbaycan strateji tərəfdaş kimi bütün vəzifələrini yerinə yetirir və bütün yeritdiyi siyasət də beynəlxalq hüququn prinsiplərinə uyğundur, Azərbaycana qarşı niyə belə mövqe olmamalıdır?! Merkel deyir ki, Rusiyaya qarşı sanksiyalar aradan qaldırıla bilər, bir şərtlə Minsk sazişindəki öhdəliklər yerinə yetirilsin. Yəni sanksiyaların səbəbi Krımın işğal olunmasıdır, işğal aradan qalxmayanadək sanksiyalar da qalacaq. Amma Qarabağın işğalı ilə bağlı Türkiyənin Ermənistana tətbiq etdiyi diplomatik sanksiyanı qəbul etmirlər. Üstəlik, Türkiyəni hər vasitə ilə təhrik edirlər. Bakının da Ankara ilə münasibətlərinin gərginləşməsinə xidmət edən məsələlərin içinə atmaq istəyirlər ki, Ermənistanla sərhədlərin açılmasına nail olsunlar. Bunu necə qiymətləndirmək olar? Nəzərə alaq ki, 2015-ci ildə ermənilər qondarma "soyqırımı"nı qəbul etdirmək üçün daha ciddi fəaliyyətə keçib. Bu məsələdə Azərbaycanın Türkiyənin yanında olduğunu hər kəs bilir. Ona görə də Azərbaycana ən müxtəlif yollarla, başqa vasitələrlə qaralamaq, dünya ictimaiyyətinin gözündən salmaq, bir növ Türkiyə ilə Azərbaycan arasında mübahisə yarada bilən fikirlər daxil etməklə diqqəti yayındırmaq və öz məqsədlərinə nail olmaq istəyirlər.

> **"Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə bağlı iradəsini Amerika daxil, bir sıra beynəlxalq dairələr qəbul etmək istəmir"**

***- Bəs, sizcə, Qərbin siyasi məhbuslar və demokratiya ilə bağlı tənqidlərinə nə qədər haqq qazandırmaq olar?***

- Azərbaycanın öz iradəsini, təbii resurslarının sahibi olaraq və onun işlənməsi sahəsində müstəqil mövqeyini qəbul etməyən dairələr və ərazi bütövlüyü, Ermənistanla münasibətlər məsələsində Bakını güzəştlərə vadar edə bilməyən, buna gücü çatmayan dairələr bəli, bunu əllərində dəstəvuz edərək Azərbaycana təzyiq göstərirlər. ABŞ-ın bəzi keçmiş siyasətçiləri, ictimai fəaliyyətlə məşğul olan nümayəndələri insan haqlarının pozulmasından danışırlar. Bəzən mətbuatın da bunun arxasında gizlənən mahiyyətin nədən ibarət olduğuna fikir vermədən, onların erməni maraqlarını qorumaq istiqamətində fəaliyyətlərinə diqqət yetirmədən elə onun görünən tərəfini qabartmağa çalışması təəssüf doğurur. Elə bu günlərdə məlum oldu ki, konqresmen Qrim -hansı ki, "erməni soyqırımı" məsələsinə başçılıq edir- Azərbaycana düşmənçiliyin formalaşmasında açıqlamaları ilə yaddan qalan biridir. Bu gün ona qarşı 20-dək ittiham irəli sürülüb və məcbur olub istefaya gedib. Onun açıqlamalarının Kramer, Malinovskinin açıqlamalarından heç nə ilə fərqlənmədiyini görmək olar. Bu, onu göstərir ki, ABŞ dairələrində, Avropa ölkələrində də kökündə erməni dairələrinə xidmət edən, bunun da müqabilində maddi mənfəət güdən, fəaliyyətləri olan şəxslər bu gün Azərbaycanda insan haqlarının pozulması ilə bağlı söylədiyi açıqlamaların səmimiliyinə heç cür inanmaq olmaz.

***- Onları "tərksilah" etmək olmazmı?***

- Siz hər zaman buna bənzər suallar verirsiniz. (Gülür) Mən sizi əmin edirəm ki, hətta bu faktlar olmasaydı belə, onlar başqa faktlar tapacaqdı. Çünki onlar müxtəlif dairələr qarşısında öhdəlik götürüb. Mən bunu rəsmi Amerika dairələri barədə demirəm. Orda fəaliyyət göstərən bir sıra keçmiş siyasətçilər, keçmiş səfirlərdən söhbət gedir. Onları da sayı çox məhduddur. Dünya bu gün mətbuat sahəsində çox kiçilib. Kim öz bloqunda nəsə bir cümlə yazırsa, o, dərhal dünya ictimaiyyətinin diqqətinə çatır və hər kəsə də elə gəlir ki, bu, ABŞ-Azərbaycan münasibətlərinin səviyyəsidir. Amma bu, elə deyil.

***- Avropa Yay Oyunlarını boykot etməklə bağlı Amerikadan eşidilən çağırışlar barədə nə düşünürsünüz?***

- Bu, çox absurd çağırışlardır. Bu, idmanın siyasətə ən müxtəlif çirkin məqsədlərlə bulaşdırılmış cəhdidir. Buna qətiyyən yol verməmək olmaz. İdmanda korrupsiya, idmanın siyasi məqsədlər üçün istifadə olunmaması ilə bağlı Konvensiya hazırlanması ideyası var, Azərbaycan da bununla əlaqədar çox ciddi fəaliyyət göstərir. Bu Konvensiya bu gün dünya ictimaiyyətinin müzakirə predmeti olmalıdır, nəinki ayrı-ayrı idman yarışlarının siyasi maraqlar üçün alver predmetinə çevrilməsi.

***- Rəsmi Bakı Avropa Yay Oyunlarının Soçi Olimpiadasının açılış mərasimində yaşananların-dünya liderlərinin mərasimə qatılmamasını nəzərdə tuturam- təkrarlanacağından narahatdırmı?***

*(Davamı növbəti sayımızda)*

❑ **Elşad PAŞASOY**



# Boş-boş yazılar, dolu-dolu keyslər

Samir SARI

**İspaniyanın ən iri qəzeti "El Mundo" bu yaxınlarda, yəni ötən ilin dekabr ayında Ermənistana xüsusi əlavə həsr edib. Yazılar "Bağ belə, bostan belə" rubrikasında verilib.**

Xəbər verilir ki, "El Mundo"da baş nazir Ovik Abramyanın, energetika və təbii ehtiyatlar naziri Yervand Zaxaryanın, eləcə də sıra dövlət məmurlarının və iş adamlarının müsahibələri yer alıb.

Onlar ölkələri haqqında, əlbəttə ki, yaxşı şeylər danışıblar, bu kiçik Qafqaz ölkəsinin regionun lideri olmasından, əhalisinin qonaqpərvərliyindən, rəsmi İrəvanın sülhpərvər siyasətindən, ölkədə gedən tikinti-quruculuq işlərindən, tükənməz təbii ehtiyatlarından, iqtisadi inkişaf templərinin yüksəkliyindən və sair bu kimi vacib şeylərdən bəhs ediblər.

Bu xüsusda uzun yazmaq istəmirəm, zatən, hamınız əcnəbi qəzetlərdə hansısa uzaq və kiçik ölkəyə həsr olunmuş yazıların hansı məzmunda olduğundan xəbərdarsınız. Məsələn, Pakistanda adı "Observer"dir, nədir, bir qəzet var, sanasan, bizim KİV DDF-dən ayrılan qrant hesabına çıxır, il-on iki ay ölkəmizə dair səhifə-səhifə yazılar verir, xüsusi buraxılışlar hazırlayır. Çox fərasətli qəzetçilərdir, dolanışığın yolunu yaxşı tapıblar.

Arada biz o cür yazıları İngiltərədə, Amerikada çıxan qəzetlərdə də təşkil etdirə bilirik. Puluyla deyilmi? Verirsən, yazırlar. Çiçəklənən Azərbaycandan, simasını sürətlə dəyişmiş Bakıdan da beş-altı qəşəng şəkil oldumu, iş tamamdır. Allah tərəfi, həm ölkəmizin rayonlarında, həm də paytaxt Bakıda şəkil çəkməli, çəkdirməli yerlər çoxdur. Şirəsi sıxılmamış narın gilələrinə and içirlər ki, Qəbələdə elə yerlər var, Abbas Atilay kimi peşəkar fotoreportyorun ordan çəkdiyi şəkillərlə dünyanı mat qoymaq olar. Baxan elə bilər, İsveçrədir, daha doğrusu, "Şvetsariya" (Belə deyəndə daha möhtəşəm səslənir).

Xüləs, yazının əsas mövzusuna, "El Mundo"da gedən mədhiyyəyə dair söhbətə qayıdaq. Belə məlum olur ki, Ermənistan mətbuatı ispan qəzetinin tərif dolu yazısını həzm edə bilməyib. Erməni jurnalistlər araşdırma aparıblar, iyləyib-çüyləyib aşkar ediblər ki, Ovik Abramayan bu xüsusi əlavəyə görə qəzetə 30 min avro ödəyib. Bu işdə vasitəçi olan adamın (Ruben Arutunyan) adını da yazıblar.

İndi erməni qəzetçilər həyəcanlı və hiddətlidirlər, deyirlər, "indiki böhran şəraitində baş nazirin bu cür bədxərclik etməsi dəhşətdir", şübhələnirlər ki, "baş nazir bu məbləği dövlət büdcəsindən ödəyib".

Vay-vay-vay! 30 min avro qonşularımızın gözünə böyük görünür. Elə bilirlər, hansısa xarici qəzetə bu qədər pul vermək bədxərclikdir.

Erməni qəzetçilər nə bilsin ki, hələ 10 il öncə bizdə bir iş adamının girov götürülən ağsaqqal atasının maşınının mücrüsündən ("bardaçok" deyək, hamı anlasın) 30 min, üstündən 10 min manat (o vaxtın məzənnəzi ilə təxminən 39 min avro) pul çıxmışdı. Ağsaqqal istintaqa verdiyi ifadəsində göstərmişdi ki, bu qədər pulu maşınında cibxərcliyi üçün gəzdirirmiş.

İndi böyük iş olub. O boyda baş nazir əcnəbi qəzetə 30 min avro verib. Nə olsun? Elə ölkələr var ki, bu iş üçün 300 min verir, heç uf da demir. Heç üstü də açılmır, bir adam belə bilmir ki, xarici qəzetə, agentliyə nə qədər pul verilib. Hamı sadəcə, ölkənin çiçəklənməsi barədə xüsusi əlavələri oxuyur, hər şeyi anlayır. Bu kimi məsələlərdə əsas amil qəzetə nə qədər pulun verilməsi deyil, ana vətən haqqında xoş sözlərin uzaq diyarlarda oxunmasıdır.

Hətta eşitdiyimə görə, öz ölkələrində reytinqlərinə görə ilk beşliyə düşən elə nüfuzlu media qurumları var ki, pulları azalan kimi çamadanlarını yarıboş şəkildə götürüb cumurlar çiçəklənən və çiçəklənməsi haqqında başqa ölkələrin camaatının da bilməsini istəyən respublikalara, bir neçə müsahibə götürür, reportaj hazırlayır, keyslərini də sərbəst dönərli valyuta banderolları ilə doldurub qayıdırlar.

Bizdə olsa elə nəşrlərin adını tutub "reket qəzetlər" siyahısına salarıq. Amma onlar bizlik deyil. Belə çıxır ki, bu işlə beynəlxalq səviyyədə məşğul olanlar da var.

**Əlbəttə, hansısa uzaq ölkədə yalan-palan çiçəklənmə haqqında boş-boş yazılar getməsini istəyənlər və bunun üçün pul ödəyənlər varsa, o cür yazıları yazıb dolu-dolu keysləri almaq istəyənlər mütləq olacaq.**

**Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov "Bloomberg" agentliyinə geniş müsahibə verərək ABŞ-Azərbaycan münasibətləri barədə suallara aydınlıq gətirib. Hakimiyyət rəsmisinin müsahibəsinin ümumi məğzi bundan ibarətdir ki, ABŞ-Azərbaycan münasibətləri heç də bir sıra media orqanlarında təqdim olunduğu kimi gərgin, dramatik deyil.**





# Rəsmi Bakı ilə ABŞ arasında "buzlar əriyir"

## Qabil Hüseynli: "Görünən odur ki, hər iki tərəf münasibətlərin düzəldilməsi istiqamətində siyasi iradə nümayiş etdirir"

**Ə.Həsənov deyib ki, Azərbaycanın xarici siyasəti bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı etimad, beynəlxalq hüquq normalarına hörmət, daxili işlərə qarışmamaq prinsipləri üzərində qurulmuşdur.** Azərbaycan bütün ölkələrlə, o cümlədən Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq və artıq formalaşmış tərəfdaşlıq münasibətlərini məhz bu prinsiplər əsasında həyata keçirir.

Ə.Həsənov qeyd edib ki, son illər ABŞ-ın bəzi dairələri, xüsusən bir sıra qeyri-hökumət təşkilatları, media və ayrı-ayrı "ekspertlər" Azərbaycana qarşı qeyri-sağlam, tərəfdaşlıq münasibətlərinin ruhuna zidd olan "qara piar" kampaniyası həyata keçirirlər. Bu kampaniyanın məntiqini, məqsədini, hədəflərini anlamaq və izah etmək çətin olsa da, onun ikitərəfli münasibətlərə mənfi təsir göstərdiyi aydın görünür. Üstəlik, ABŞ Dövlət Departamentindəki bəzi məmurlar da hərdən anlaşılmaz açıqlamalar verərək, Azərbaycan ictimaiyyətini çaşdırır və müvafiq olaraq iki ölkə arasındakı konstruktiv münasibətlərə xələl gətirirlər: "Mən belə cəhdləri birbaşa ABŞ prezidenti və onun administrasiyası ilə əlaqələndirmək istəməzdim. Çünki istər Prezident Barak Obama, istərsə də ABŞ-ın digər yüksək səviyyəli rəsmi şəxsləri müxtəlif vaxtlarda Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsinə böyük önəm verdiklərini və bu məqsədlə Azərbaycanın hazırkı prezidenti İlham Əliyevlə, onun rəhbərlik etdiyi iqtidarla işləmək arzusunda olduqlarını ifadə etmişlər.

Düşünmürəm ki, ABŞ-ın bəzi keçmiş uğursuz məmurlarının hazırda "ekspert" qismində tez-tez ona-buna, o cümlədən beynəlxalq hüququn subyekti olan müstəqil dövlətlərə ağıl öyrətməyə çalışması, yaxud bu və ya digər hüquqa zidd çağırışlar etməsi, müvafiq olaraq qarşı tərəfin də onlara adekvat cavab verməsi iki ölkə arasındakı dərin tərəfdaşlıq münasibətlərini gərginləşdirmək gücündədir. Azərbaycanla ABŞ arasındakı dövlətlərarası münasibətlər həm tərəflərin milli maraqları baxımından, həm də qlobal beynəlxalq müstəvidə üst-üstə düşür və tərəfdaşlıq xarakteri daşıyır. Hazırda iki ölkə arasında münasibətlər ümumi maraq kəsb edən əsas məsələlər üzrə, o cümlədən qlobal transmilli müstəvidə əməkdaşlıq və tərəfdaşlıq istiqamətində davam etdirilir, qarşılıqlı təmaslar intensivdir. Düşünürəm ki, ölkələrimiz arasında münasibətlərin gələcək tendensiyasını da məhz bu amillər müəyyən edəcək. Odur ki, bu tipli bədbin yanaşma ilə ABŞ-Azərbaycan dövlətlərarası münasibətlərini xarakterizə etmək yanlışdır".

**Əli Həsənovun açıqlamaları ABŞ-Azərbaycan münasibətlərinin bir sıra media orqanlarında təqdim edildiyi qədər gərgin olmadığını söyləməyə əsas verir. Bu mövzuda danışan politoloq Qabil Hüseynli bildirdi ki, Əli Həsənovun müsahibəsindən ümumi o qənaətə gəlmək olar ki, son vaxtlar müşahidə olunan soyuq münasibətlər normallaşmağa doğru gedir. Ən azından Azərbaycan hakimiyyəti münasibətlərin istiləşməsini istədiyini nümayiş etdirmiş oldu:** "Amerikanın özündə də çox ciddi tədqiqatçılar, politoloqlar, keçmiş rəsmilər, məsələn sabiq müdafiə naziri dəfələrlə ABŞ administrasiyasının Azərbaycana yönəlik siyasətində yanlışlıqlar olduğunu söyləmişdilər. Onlar açıq surətdə ən nüfuzlu qəzetlərdə bildirmişdilər ki, bu bölgədə ən vacib strateji tərəfdaşlarından biri Azərbaycandır və bəzi xırda məsələlərə görə böyük strateji məsələləri qurban verməmək olmaz. Yeni səfirin özü də Vaşinqtonda keçirdiyi mətbuat konfransında dedi ki, əsas missiyası ABŞ-Azərbaycan münasibətlərinə yeni dinamizm verməl, onu daha yüksək səviyyəyə qaldırmaqdan ibarət olacaq. İndi Əli Həsənovun müsahibəsinin bu açıqlamalarla eyni zamanda ortaya çıxması yəqin ki, ABŞ siyasətçilərinin fikirlərinin analizinə əsaslanaraq söylənilib. Hər bir halda görünən odur ki, hər iki tərəfdən münasibətlərin düzəldilməsi istiqamətində siyasi iradə nümayiş etdirilir. Ona da diqqət etmək lazımdır ki, indiyə qədər ABŞ prezidenti, nə dövlət katibi tərəfindən Azərbaycanın ünvanına sərt fikir səslənməyib. Eyni sözü Azərbaycanın prezidenti və xarici işlər naziri haqqında da söyləmək olar. Tənqidlər yalnız hansısa ekspertlərin, deputatların mediada açıqlamaları səviyyəsində olub. Bəzi hadisələr isə olduğundan həddən artıq dərəcədə şişirdilib. İndi sanki hadisələr normallaşma dövrünə qədəm qoyub. Çünki hər iki tərəfdən buna ciddi cəhdlər var.

ABŞ-ın keçmiş müdafiə naziri bildirib ki, Cənubi Qafqaz ABŞ-ın Yaxın Şərq və Orta Şərq strategiyasında ən önəmli nöqtələrdən biridir və burada hər hansı səhvə yol vermək olmaz. Bax, bu nöqteyi-nəzərdən açıqca demək lazımdır ki, kimlərinsə Amerikanın Cənubi Qafqaza o qədər də əhəmiyyət vermədiyi barədə iddiaları əsassızdır".

**Politoloq onu da qeyd etdi ki, Amerikanın Cənubi Qafqaza olan marağı günbəgün artır. Bunu gizlətmədən demək lazımdır ki, ABŞ bu bölgədə Rusiyanın bir sıra planlarına qarşı çıxış etmək niyyətindədir:** "Rusiya Poti limanında, Gürcüstanın bəzi digər limanlarında strateji nöqtələri pulla alaraq, Dağıstandan isə oraya ayrıca strateji yol çəkdirərək, həmçinin Abxaziyadan keçən dəmiryolunu təmir etdirərək Azərbaycanı da blokadaya almaq istəyir. Bu, təkcə Gürcüstan və Azərbaycana qarşı deyil, həm də Qərbin, ABŞ-ın bu bölgədəki maraqlarına qarşıdır. Amerikada isə artıq dərk etməyə başlayıblar ki, insan haqları məsələlərində müəyyən fikir ayrılıqlarına baxmayaraq Azərbaycanla münasibətləri strateji tərəfdaşlıq səviyyəsində qoruyub saxlamaq lazımdır. Çünki Azərbaycan bu bölgənin həm hərbi potensialına, həm iqtisadi potensialına görə ən güclü dövlətidir. Üstəlik, Qərb dövlətlərinin enerji təminatında Azərbaycan rol oynayır".

**Q.Hüseynlinin sözlərinə görə, bütün bunları geniş təhlil etdikdə o nəticəyə gəlmək olar ki, ABŞ-ın Azərbaycana sanksiyalar tətbiq edəcəyi haqda irəli sürülən iddialar reallığa əsaslanmır:** "ABŞ Azərbaycan kimi dövlətlə belə bir işə qol qoymaz. İsraillə də Azərbaycanın münasibətlərinin pozulmasından bir çoxları danışırdı. Artıq İsrail tərəfindən açıq-aydın bildirildi ki, Azərbaycanla münasibətlər heç zaman pozulmayacaq".

Etibar SEYİDAĞA

# Dünyanın simasını 11 sentyabr qədər dəyişən olay

**Təzə təqvim ili dünya düzənini silkələyən qanlı hadisə ilə başladı. Parisdə satirik jurnalın redaksiyasına hücum və bu hücum nəticəsində 12 nəfərin qətlə yetirilməsi gerçək mənada qlobal miqyaslı yeni situasiya yaratmış oldu.**




# 7 yanvar terrorunun küləyi Azərbaycanı da vuracaq - təhlükə

## Qlobal düzəni poza biləcək qorxulu prosesin tətiyi çəkilmiş kimi görünür; Paris qətliamı həm də Krımın ilhaqının effektinə bərabər rezonans doğurub və Rusiya işğalını arxa plana keçirib - dost-müttəfiqlərin sırası dəyişə bilər; ölkəmiz yeni təhdidlərlə üz-üzə...

Bu olayı effektinə və rezonansına görə, Rusiya tərəfdən Krımın ilhaqına da bənzətmək olar; ABŞ-da, Nyu-Yorkda 3 min nəfərə yaxın insanın ölümü ilə nəticələnən 2001-ci ildəki 11 sentyabr terror olayı ilə də müqayisə etmək mümkündür. Doğrudur, Parisdə cəmi 12 nəfər həyatını itirib, lakin söhbət kəmiyyətdən deyil, qeyd edildiyi kimi, hadisənin əks-sədasından, onun doğura biləcəyi uzaqgedən nəticələrin ciddiliyindən və ictimai-siyasi əhəmiyyətindən gedir.

Məsələ də ondadır ki, 11 sentyabr terroru zamanı, belə demək mümkünsə, yalnız gizli fəaliyyət göstərən “əl-Qaida” təşkilatı mövcud idisə, indi həm “əl-Qaida” var, həm də İraq və Suriyanın mühüm bir hissəsini ələ keçirib “xilafət” yaradan və beynəlxalq təhlükəsizliyi real surətdə təhdid edən, özünün ciddi ordu birləşmələrinə malik İŞİD.

Eyni zamanda 11 sentyabrdan keçən müddətdə Qərbin bətnindən yetişmiş və 77 dinc müsəlmanın ölümünə səbəb olmuş Breyvik sindromu var. Yəni əslində 2015-in dünyası 2001-ci ilin 11 sentyabr sonrası dünyasından daha ziddiyyətli, daha təhlükəli, daha etibarsızdır. İndi havadan barıt qoxusu daha çox gəlir, nəinki o zaman.

Bundan əlavə, 11 sentyabrdan 7 yanvaradək olan müddətdə ABŞ-ın İraq və Əfqanıstan projeləri faktiki, iflas olub. Terrorla mübarizə və demokratiya ixracı adı altında bu ölkələrə hərbi müdaxilə edən Amerika və müttəfiqlərin həmin ölkələrdən öz qoşunlarını məğlub qismində çıxarıblar. Bu amil sözsüz ki, radikal-ekstremist, dinçi qüvvələrə əlavə stimul verir.

Bura qlobal miqyasda, ələlxüsus da Qərbdə müəyyən məkrli dairələrin israrla sivilizasiyalar arasında toqquşma yaradıb, bulanıq suda balıq tutmaq sevdası ilə yaşamasını da əlavə eləsək, beynəlxalq sabitliyə təhlükənin nə dərəcədə böyük olduğu üzə çıxar.

Yeri gəlmişkən, bəzi versiyalara görə, beynəlxalq sanksiyalara tuş gəlmiş Rusiya da bu qarşıdurmada maraqlıdır, çünki ən azından Qərbin diqqətini özündən yayındırır, eyni zamanda terrorla mübarizədə “yaxşı tərəfdaş” kimi ortaya çıxır. Təsadüfi deyil ki, 7 yanvar olayından sonra Qərb siyasətçilərindən biri terrorizmlə mübarizədə Rusiyanı Avropanın “etibarlı müttəfiqi” adlandırıb.

***

Parisdəki hücumun mümkün sonucları ilə bağlı istər analitiklər, istərsə də siyasət adamları tərəfindən müxtəlif proqnozlar, xəbərdarlıqlar səslənməkdədir. Məsələn, bu olaya dair fikirlərini “Yeni Müsavat”a açıqlayan Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər bildirib ki, hadisə həm İslama hücum edənlərin, həm də hücumdan faydalanaraq öz sıralarını genişləndirmək istəyən islamçı qrupların işinə yarayır: “Fransada və Avropanın başqa ölkələrində müsəlmanlara qarşı təzyiqlər, sıxışdırma halları güclənsə, İŞİD və "əl-Qaida" kimi təşkilatlar bundan daha çox yararlanacaq, öz resurslarını artıracaqlar".

Belə bir təhlükə isə həqiqətən var və 7 yanvardan sonra köhnə Avropa qitəsində yaşananların fonunda deyəsən güclənməkdədir. Axı, “pis nümunə yoluxucu olur”. Onun yoluxucu olmaması üçünsə ilk növbədə qlobal siyasəti müəyyən edən fövqəlgüclərin olduqca təmkinli, ölçülü-biçili addımlar atması gərəkdir. Və hansı addım olur-olsun, bu kontur-tədbirlər, sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası münasibətlərə zərbə vurmamalıdır. Əks halda, nəticə 7 yanvardan da ağır ola bilər - çünki dünya indi qat-qat böyük barıt çəlləyi üstündədir.

***

Bu iddiamızın bir sübutu da Parisdə dünən təkrarlanan qorxunc olaylardır. Məlum olduğu kimi, 9 yanvarda Parisdə yenidən terror və girov eyləmləri oldu, dünyanın gözü bu olaylara dair canlı yayın yapan televiziyalarda qaldı. Bütün bunlar da onu göstərir ki, dünya, xüsusi ilə də Avropa yaxşı təşkil olunmuş radikal qüvvələrin qorxunc terror ssenariləri ilə qarşı-qarşıya qayıdıb. İndi İŞİD sindromu hər yerdədir. Bütün dünyanın təhlükəsizliyi təhdid altındadır.

***

Madam ki, söhbət dünya düzəninə və təhlükəsizliyinə yeni təhdidlərdən gedir, deməli, Azərbaycan da yeni təhlükələrdən sığortalanmayıb. Biz əslinə qalsa, neçə aydır artıq bu təhlükənin içində, onunla qabaq-qənşərik - nəzərə alsaq ki, 1 yanvar hücumunu alqışlayan İŞİD-in sıralarında yüzlərlə azərbaycanlı vuruşur və qruplaşmanın hədəfində Azərbaycan da var. Həmçinin, son vaxtlar ölkə miqyasında təhlükəsizlik orqanları tərəfindən aparılan həbslər, həyata keçirilən əks-tədbirlər qənaətimizə şübhə yeri saxlamır.

Avropadakı proseslər isə təhlükəli uzantı kimi özünü ölkəmizə də göstərə, müəyyən qrupların fəallaşmasında bürüzə verə bilər əgər: 1. Qitədə islamofobiya əndazəni aşsa və nəzarətdən çıxsa; 2. Radikal ekstremist qruplar - istər xristian təmayüllülər olsun, istərsə də islam - öz uğurlarına əminlik hasil eləsələr. Unutmayaq ki, konkret olaraq Azərbaycanda radikalların hədəfində təkcə Qərb dünyasının məkanları, atributları olmaya da bilər.

**Hər halda, şər deməsən, xeyir gəlməz. Şər isə dövlət, millət sərhədlərini çoxdan tanımır.**

❑ Siyasət şöbəsi

# Fransa ordusu Əlcəzairdə 1.5 milyon müsəlmanı niyə və necə öldürüb?

## Karikatura jurnalına hücum edənlər Parisin Yaxın Şərqdə dəstəklədiyi radikal islamçı qrupların üzvləri olub

**Fransada törədilmiş terror aktından sonra bu ölkədə yaranmış gərginlik davam edir. Ötən gün ölkənin şərqində daha bir terror hücumu qeydə alınıb. Polis və hökumət qüvvələri əməliyyat hazırlıq vəziyyətinə gətirilib. Eyni zamanda Livan mətbuatı yerli kəşfiyyat mənbələrinə istinadən Fransada növbəti terror aktları planlaşdırıldığı xəbərini yazıb. Məlumatda Suriyada radikal qruplarda olmuş terrorçuların Fransada Paris terrorundan daha ağır nəticələrə səbəb olacaq terror hadisələri hazırlandığı bildirilir.**



Eyni zamanda Parisdə “Charlie Hebdo” jurnalına qarşı terror törədən qardaşların izlənməsi və mühasirəyə alınması Parisdə yüksək səviyyəli təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə səbəb olub. Məktəblər bağlanıb, küçələr təmizlənib, bəzi mənbələrə görə hökumət qüvvələri terrorçulara qarşı əməliyyata cəlb olunub. Fransa prezidenti isə bəyan edib ki, bundan sonra təhlükəsizlik tədbirləri gücləndiriləcək.

Qeyd edək ki, terror olaylarından sonra Fransada yaşayan müsəlmanların durumu, eləcə də Fransanın ərəb dünyasındakı siyasi, yəni əslində bu terroru doğuran səbəblər müzakirəyə çıxarılıb. Yeri gəlmişkən, son illərin məlumatına əsasən Fransa əhalisinin 7 faizi və ya 4 milyondan bir qədər çoxu müsəlmandır. Bu insanların bir çoxu artıq 3-cü nəsildir ki, Fransada yaşayan Şimali Afrika və Yaxın Şərqdən köçüb gələn ərəblərdir. Onların bir çoxu müstəmləkə illərində Fransa dövlətinə xidmət edib və sonradan məhz bu xidmətlərinə qarşılıq olaraq Fransaya köçmək hüququ əldə ediblər. Ancaq uzun illər bu insanlar şəhərlərdən uzaqlarda, xüsusi hazırlanmış düşərgələrdə saxlanıblar. Bu səbəbdən də ərəb əhalisi Fransa xalqına qaynayıb-qarışmayıb. Ona görə də Fransada böyük bir ərəb-müsəlman kütləsi formalaşıb.

2005-ci il noyabrında polisin yoxlamasından yayınan və təqib olunan 3 nəfər gənc qaçaraq yüksək gərginlikli elektrik stansiyasında gizlənməyə çalışır. Bu zaman cərəyan vurması nəticəsində ərəb əsilli 17 yaşlı Zyed Benna və 15 yaşlı Traore Bauna ölür, 17 yaşlı Muhiddin Altun isə ağır yaralanır. Bu hadisə Paris ətrafında gecəqondularda yaşayan Şimali Afrika əsilli gənclər arasında böyük etiraza səbəb olur və çox keçmədən Fransa paytaxtında, eləcə də digər iri şəhərlərdə kütləvi itaətsizlik olayları başlayır. Gecələr küçələrə çıxan anarxistlər maşınları, mağazaları yandırır, ictimai əmlaka ziyan vururdular. Həmin vaxt Fransa daxili işlər naziri Nikolya Sarkozinin mühacir ərəbləri təhqir edən açıqlama verməsi olayları hökumət əleyhinə çıxışlara çevirir.

Bu hadisə bir daha Fransada mühacirlərin, xüsusən də ərəb ölkələrindən və Şimali Afrikadan mühacirət etmiş ailələr probleminə diqqəti cəlb edib. Qeyd edək ki, klassik müstəmləkə ölkəsi olan Fransa XVII-XX əsrlərdə planetin bütün bölgələrində demək olar ki, ərazilər zəbt edib. Şimali, Mərkəzi Amerikada, Asiyada, Asiya Sakit Okeanda, Afrikada Fransa dövlətinin müstəmləkəsi olan böyük ərazilər mövcud olub. Fransanın müstəmləkə işğalları zamanı ən böyük ölçüdə insan qırğınları Afrika qitəsində baş verib. Afrikanın demək olar ki, yarısı 19-cu əsrdə fransızlar tərəfindən işğal olunub, müqavimət göstərən 10 minlərlə yerli insan öldürülüb.

Benin, Çad, Cibuti, Qabon, Qana, Kamerun, Komor adaları, Mavritaniya, Niger, Seneqal, Tunis, o cümlədən Suriya, Livan və nəhayət, Əlcəzair. Bu siyahını uzatmaq da olar. Təkcə Əlcəzairdə Fransa ordusu 1,5 milyon insanı qətlə yetirib. Fransa ordusu Əlcəzairi 19-cu əsrin əvvəlində işğal edib. Əlcəzair 1830-cu ildən 1962-ci ilə qədər, 132 il Fransanın işğalı altında olub. Bu ölkədə bir neçə dəfə baş verən xalq üsyanları hər dəfə güclü ordu və texnikaya sahib Fransa qüvvələri tərəfindən amansızlıqla yatırılıb. Çox da uzaq olmayan tarixdə, ikinci dünya savaşından sonra Əlcəzairdə baş verən müstəqillik hərəkatı Fransa ordusu tərəfindən qanla boğulub.

1954-cü ilin noyabrından 1962-ci ilin martına qədər davam edən milli azadlıq savaşı zamanı bütün mütərəqqi dünyanın gözü qarşısında Fransa 1,5 milyon əlcəzairlini qətlə yetirib. Bu, təxminən hər gün 550 nəfərdən çox insanın öldürülməsi deməkdir. Fransanın ilk nüvə silahı sınaqları da (!) məhz Əlcəzairdə keçirilib.

**Əslində bu gün Fransada baş verən və eləcə də Yaxın Şərqdəki terror qruplarının fəallaşması ilə bağlı sualların cavabları Qərb paytaxtlarında yatır. Fransalı iki qardaşın Suriyaya gedib məhz Fransanın dəstəklədiyi radikal islamçı qruplar tərkibində döyüşməsi artıq təsdiq olunub. Bu hadisələr həm də dini çirkli oyunlarına alət etməyə çalışan siyasi dairələr üçün və bu prosesdən əziyyət çəkən xalqlar üçün xəbərdarlıq mahiyyəti daşımalıdır.**

❑ KƏNAN

YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015

# "12 gündür uşaqlarımız "tubzon"da işgəncələrə məruz qalır"

## "Uşaqlarımızın bəzilərini orada əməliyyat ediblər, bir neçəsinin daxili orqanları dağılıb"

**14 saylı Cəzaçəkmə Müəssisəsində məhkum Elşad Babayevin öldürülməsi məhkumların kütləvi etirazına səbəb olub. Ötən il dekabrın 22-də baş verən bu olaydan 4 gün sonra müəssisəyə xüsusi təyinatlılar yeridilib, məhkumlar kütləvi şəkildə döyülüblər. Onlardan 11 nəfərin taleyi bu gün də qaranlıqdır. Belə məlumatlar var ki, həmin məhkumlar Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə ("tubzon") köçürülüblər. Amma bu haqda rəsmi məlumat yoxdur, məhkumların yaxınlarına da onlarla görüşməyə şərait yaradılmır.**

"Tubzon"da saxlanılan 11 məhkum barədə dekabrın 26-dan bu yana xəbər verilmir. Bilmirik ki, uşaqlarımız orada ölüb, ya qalıb". Bunu "Yeni Müsavat"a məhkum analarından biri deyib. Bildirib ki, yanvarın 8-də Penitensiar Xidmətə gedərək rəis Mədət Quliyevlə görüşmək istəyiblər: "Onun qəbuluna düşə bilmədik. Bizi bir nəfər qəbul etdi. Çox kobud şəkildə danışırdı. Deyirdi sizi polisə verəcəyəm. 102-ni yığacağını deyirdi. Onu birtəhər sakitləşdirib dedik ki, Mədət Quliyevin müavini Hüseyn Əlixanovun yanında olmuşuq. O, "tubzon"un rəisi Nizamiyə zəng edib və bizi qəbul etməsini tapşırıb. Amma bizi qəbul etməyib. Bizə belə xəbər çatıb ki, uşaqlarımızın bəzilərini orada əməliyyat ediblər. Onların əl-ayaqları sınıb. Bir neçəsinin daxili orqanları dağılıb. Vəkilləri də "tubzon"a buraxmırlar".

**Valideynlər deyib ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi 14 saylı Cəzaçəkmə Müəssisənin rəisi Əli İbrahimovla danışıb:** "O, nümayəndəyə deyib ki, 11 nəfər məhkum vərəm xəstəsi olduqlarına görə "tubzon"a köçürülüblər. Bu ağ yalandır. Ora köçürülən məhkumların heç biri vərəm deyil. "Tubzon" işgəncə yeridir. Bizim övladlarımıza orada işgəncə verirlər. 12 gündür ki, uşaqlarımız "tubzon"da işgəncələrə məruz qalır".

**Valideynlər Ə.İbrahimovun onları da aldatdığını bildirdilər:** "Elşad Babayev öldürüləndən sonra, dekabrın 26-da uşaqlarımızı "tubzon"a köçürüblər. 26-da ora itlərlə "voyska" girib. Hamını döyüb alt paltarında plastda saxlayıblar, döyüblər. Bizə də deyirlər ki, uşaqlarınız məhkəməyə gediblər. Övladlarımızın vəziyyəti çox ağırdır. Döyülmələrdən daxili orqanları zədələnib. Biz hər gün 9-10 saat "tubzon"un qabağında dayanıb övladlarımızla görüş veriləcəyini gözləyirik. Oranın rəisi Nizami qabağımıza çıxmır. O, Azərbaycanda məhbusları vəhşicəsinə döyməsi ilə ad çıxarıb. Onlar məhkumlara qarşı vandalizmlə məşğuldurlar. Əli İbrahimov yanvarın 1-nə qədər övladlarımızın harada olduğunu gizlətdi. Bu ən böyük qanunsuzluqdur. Əgər bir məhkum xəstələnərsə və ya başqa bir "zon"a, istintaq təcridxanasına köçürülərsə, mütləq onun yaxınlarına bu haqda məlumat verilməlidir. Özü ilə bərabər iş qovluğu da göndərilməlidir. Bizə deyirlər ki, övladlarınızı heç yerə göndərməmişik. İş qovluqlarını bizə göstərirlər. Deməli, övladlarımızın "tubzon"a köçürülməsinin qanunsuz olduğunu özləri də bilirlər. Onları orada qeydiyyata salmadan saxlayırlar. Qanundankənar ora aparıb "press"ləyirlər, döyürlər. Bizə "tubzon"dan xəbər gəlib ki, onları orada 1 həftə əl-ayaqları qandalda saxlayırlar, işgəncə verirlər. İşgəncə verənlərin adları da bizə məlumdur. Əgər övladlarımızın hər hansı bir günahı varsa, onları Bakı İstintaq Təcridxanasına, Şüvəlan İstintaq Təcridxanasına göndərsinlər. Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsində onların nə işi var? Sağlam adamı vərəmli xəstələrlə eyni yerdə saxlanılması cinayətdir".

**Valideynlər bildiriblər ki, Prezident Administrasiyasında da olublar:** "Bizi Prezident Administrasiyasından ədliyyə naziri Fikrət Məmmədovun qəbuluna göndərdilər. Orada dedilər ki, sizi İsa müəllim qəbul edəcək. Amma o da hər hansı bir konkret söz demədi. Qanunsuzluqlarla bağlı məlumat verdik, övladlarımızın "tubzon"a göndərilməsinin səbəbini soruşduq. İsa müəllim cavab verə bilmədi. "Tubzon"a gələn İmran Tağızadənin maşınının qarşısını kəsdik. Nizami yanında idi, dedi ki, övladlarınız bura 15 sutkalıq karsa gəliblər, biz də 15 gün əlavə etmişik. Onların yanında Qırmızı Xaç Komitəsinin Maksim adlı nümayəndəsi də vardı. Dedi ki, "vaşi sınovya jivı i zdarovı". Maksimə də dedik ki, bizə övladlarımızı göstərin. Biz onların öldü-qaldısından məlumatsızıq".

**Valideynlər təhdid edildiklərini də açıqlayıblar:** "Bizə Nizami, İmran müəllim deyir ki, qəzetlərə şikayət edirsiz, övladlarınızın vəziyyətini ağırlaşdırırsız. Biz dərdimizi kimə deyək? Açıq-aşkar deyirlər ki, övladlarınız bura qayıdacaq. Yəni onlar da Elşad Babayevin taleyini yaşaya bilərlər. Dekabrın 22-dən sonra 14 saylı cəzaçəkmə müəssisəsində namaz qılmaq qadağan olunub. Açıq deyirlər ki, dindar məhkumlar əfv üçün ərizə yazmadığına görə onlara qarşı amansız davranırlar. İmran müəllim məhkum Anarın anasına dedi ki, evinizə adam göndərdik ki, əfv üçün ərizə yazın. Niyə yazmadız?"

**Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi, məhkum yaxınları ilə təmasda olmuş Maksim Zadaluyevlə əlaqə saxladıq.** M.Zadaluyev dedi ki, başçəkmələrlə əlaqədar 3-cü şəxslərə, mediaya məlumat vermək təmsil etdiyi qurumun mandatına uyğun deyil. Bununla belə M.Zadaluyev məhkumların yaxınlarının müraciətlərinə baxmağa hazır olduqlarını da açıqladı: "Bizim Azərbaycan hökuməti ilə müqaviləmiz var və həmin müqavilə bizə saxlama yerlərinə baş çəkməyə, orada saxlanılan məhkumlarla, saxlanılan şəxslərlə görüşməyə imkan verir".

**M.Zadaluyev məhkum E.Babayevin 14 saylı Cəzaçəkmə Müəssisəsində öldürülməsi haqda məlumatlı olduqlarını, mətbuatı izlədiklərini də bildirdi. Komitənin İctimaiyyətlə Əlaqələr Şöbəsini müdiri İlahə Hüseynova 11 məhkumun Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə köçürülməsi haqda məlumatlı olduqlarını söylədi:** "Beynəlxalq Qırmızı Xaç Komitəsi saxlama yerlərinə baş çəkir və saxlanılan şəxslərin ailələri ilə görüşür. Amma bu barədə ictimaiyyətə məlumat verilmir".

**İ.Hüseynovadan BQXK-nin Azərbaycandakı nümayəndəliyinin vərəmli olmayan məhkumların vərəmli məhkumlar üçün nəzərdə tutulan Müalicə Müəssisəsinə köçürülməsinə münasibətlərini də xəbər aldıq. İ.Hüseynova "şərh verə bilmərik" deyə bildirdi.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# Elçin Behbudov işgəncə faktlarını açıqladı

## Hüquq müdafiəçisi: "Mədət Quliyevin müavini işgəncə ilə bağlı sorğumuza cavab yazdı ki, bəli, məhkuma rezin dəyənək tətbiq olunub, qandallanıb"

**Dünən İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin (İQAK)sədri, hüquq müdafiəçisi Elçin Behbudov 2014-cü ildə komitəyə daxil olan şikayətlərlə bağlı illik hesabatı açıqlayıb. Tədbirdə 14 saylı Cəzaçəkmə Müəssisəsindən Vərəmli Məhkumların Müalicə Müəssisəsinə köçürülən məhkumların yaxınları da iştirak ediblər. E.Behbudov bildirib ki, İQAK-a 2011-ci ildə 136, 2012-ci ildə 141, 2013-cü ildə 116, 2014-cü ildə 324 nəfər müraciət edib. 112 müraciət işgəncə, qismən qeyri-insani rəftarla bağlı olub. 112 şikayətçidən 3-ü azyaşlı, 13 nəfəri isə qadın olub.**

Ötən il 4 nəfər saxlanma yerində dünyasını dəyişib. E.Behbudov dedi ki, İQAK Ədliyyə Nazirliyi Penitensiar Xidmət istisna olmaqla, daxili işlər, milli təhlükəsizlik, müdafiə, səhiyyə, təhsil nazirlikləri ilə sıx əməkdaşlıq edib: "Əvvəlcədən xəbərdarlıq etmədən bu qurumların qapalı yerlərində monitorinq keçirmişik.

Polis orqanlarının müvəqqəti saxlanma yerlərində saxlanılan şəxslər üçün tibbi kartlar açılıb. Həmin kartlarda yalnız həkimlər tərəfindən mütəmadi olaraq qeydlər aparılır. Saxlanma yerlərində saxlanılan azyaşlılar üçün televizor və telefon xətləri çəkilib, saxlanma yerləri standartlara uyğundur. Lakin polis orqanları ilə bağlı da komitəyə şikayətlər daxil olub". Komitə sədri 2014-cü ildə Müdafiə Nazirliyinin Mərkəzi haupvaxtında, hərbi hissələrində, və intizam xarakterli "N" saylı hərbi hissəsində monitorinqlər keçirildiyini bildirib: "2014-cü ildə Zakir Həsənov müdafiə naziri təyin edildikdən sonra əsgərlərə verilən yeməklərin keyfiyyəti yaxşılaşdırılıb, yeməkxana və ayaqyolunda təmizlik işləri mülki işçilərə həvalə olunub. Bu hal əsgərlərə qarşı qeyri - insani rəftarın qarşısını alıb. Neqativ hallarla ciddi mübarizə aparılıb. 2014-cü ildə hərbi hissələrdən işgəncə və qeyri - insani rəftarla bağlı şikayət daxil olmayıb. Lakin əvvəlki illərdə hərbi hissələrlə bağlı kifayət qədər müraciət daxil olurdu".

E.Behbudov 2009-cu ildən Ədliyyə Nazirliyi Penitensiar xidmət tərəfindən cəzaçəkmə müəssisələrində monitorinq aparmaq və fərdi qaydada daxil olmuş şikayətləri araşdırmaq üçün onlara şərait yaradılmadığını söyləyib: "Buna baxmayaraq məhkumların ailə üzvləri komitəyə işgəncə və qeyri-insani rəftarla bağlı şikayət edirlər".

E.Behbudov 2014-cü ildə Milli Təhlükəsizlik Nazirliyinin müvəqqəti saxlanma yerinin açıldığını, Dövlət Miqrasiya Xidməti ilə işgüzar əlaqə qurduqlarını bildirdi: "Eyni zamanda Təhsil Nazirliyinin internat məktəblərində olmuşuq. 2014-cü ildə Təhsil Nazirliyinin Suraxanı rayonunda yerləşən 7 saylı internat məktəbində təlim tərbiyənin vəziyyəti araşdırılıb və oranın fəaliyyəti məqbul bildirilib. üçün dayandırılıb. 2014-cü ildə Səhiyyə Nazirliyinin Narkoloji Dispanserinin və Psixatiriya üzrə Məcburi Müalicə Şöbəsində monitorinqlər aparılıb. Ciddi nöqsanlar olmasa da təmirlə bağlı tövsiyələr rəhbərliyə çatdırılıb".

**Hüquq müdafiəçisi Penitensiar Xidmətin tabeliyindəki saxlama yerlərində baş verənləri araşdırmaq imkanından məhrum edildiyini vurğuladı:** "2014-cü il mayında Bakı İstintaq Təcridxanasında məhkum Ağasadıq Tapdıq oğlu Əliyevin döyülməsi, işgəncəyə məruz qalması haqda müraciəti araşdırmaq üçün Penitensiar Xidmətə müraciət etdim. Mədət Quliyevin müavini Hüseyn Əlixanov işgəncə ilə bağlı sorğumuza cavab yazdı ki, bəli məhkuma rezin dəyənək tətbiq olunub, qandallanıb. Guya bunu Ağasadıq Əliyevin ətrafındakılara zərər yetirə biləcəyini nəzərə alaraq Cəzaların İcrası Məcəlləsinə əsasən ediblər. Axı bu gülməlidir. Harada görülüb ki, məhkum, saxlanılan şəxs ətrafındakılara zor tətbiq etsin? Əli dubinkalı nəzarətçiyə məhkum hücum edər?"

**E.Behbudov tədbirdə iştirak edən məhkumların yaxınlarına bildirib ki, onların müraciətlərini prezidentə ünvanlayıb:** "Məndə olan məlumata görə, bu məsələ şəxsən prezidentin nəzarətindədir. Müraciətləri beynəlxalq təşkilatlara da yollayacam".

❑ **E.MƏMMƏDƏLİYEV**




PENITENSIAR XİDMƏT
İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri cənab Elçin Behbudova
Hörmətli Elçin müəllim,
Bakı istintaq təcridxanasında saxlanılan məhkum Əliyev Ağasadıq Tofiq oğluna



Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015



# 2015-ci illə bağlı kövrək Qarabağ gözləntiləri

## ATƏT-in təzə sədri prioritetin Qarabağ yox, Ukrayna məsələsi olacağını anons etdi; ekspertlər də sıçrayışa ümid bəsləmirlər; situasiyanı dəyişmək vəzifəsi yenə Bakının üzərində qalır...

**Azərbaycan dövləti üçün köhnə ilin ən ağır yüklərindən biri şübhəsiz ki, daha bir il həllini tapmadan növbəti ilə adlayan Dağlıq Qarabağ problemi oldu. Təzə ilə köhnə, 25 ilin problemi ilə girdik. Bu isə o deməkdir ki, təkcə Azərbaycan və Ermənistan deyil, ümumən Güney Qafqaz regionu da özünün iqtisadi vahid kimi sürətli inkişafı önündə əsas maneəni götürməkdə bir qiymətli ilini də itirdi. Qazanan isə təbii ki, bu münaqişənin qalmasında ən çox maraqlı olan Rusiya oldu.**

Yanvarın 1-dən isə Serbiya ATƏT-ə bir illik sədrliyi rəsmən İsveçrədən qəbul edib. Serbiyanın xarici işlər naziri İviç Daçiçin sözlərinə görə, təşkilatın ilk tədbiri ATƏT Daimi Şurasının yanvarın 15-nə təyin edilən iclası olacaq. Maraqlıdır ki, XİN başçısı ölkəsinin təşkilata sədrliyi dönəmində əsas prioritet məsələnin Ukrayna böhranı olacağını söyləyib. Demək, Qarabağ məsələsi bu il də ATƏT-in Minsk Qrupu üçün, beynəlxalq birliyin xüsusi diqqət mərkəzində qalmayacaq.

***

Bəs əcnəbi təhlilçilər 2015 barədə nə düşünürlər?

**Amerikalı ekspert Piter Teys:** "2015-ci ildə yarana biləcək dördtərəfli Azərbaycan-İran-Rusiya-Türkiyə strateji əməkdaşlığı Qarabağ münaqişəsinə Bakının maraqlarına uyğun surətdə müsbət təsir edəcək. Ümid edirəm ki, Ermənistan 2016-cı ildə bölgənin qonşu ölkələrin qatıldığı infrastruktur və digər strateji layihələrinə reinteqrasiya edəcək. Azərbaycan və Ermənistan hökumətləri arasında formal yox, məzmunlu danışıqların təmin edilməsi beynəlxalq birlik üçün həqiqi məqsədə çevrilməlidir. Hədəf isə situasiyanı dalandan çıxaracaq və işğal altındakı ərazilərində Ermənistanın təlimlər keçirməsi kimi təxribatçı hərəkətlərini önləyəcək qərarların işlənməsi olmalıdır".

**Alman ekspert Hans Qutbrod:** "Bir çox faktorlar səbəbindən hansısa təxminlər söyləmək həmişə çətindir. Mənim fikrimcə, Güney Qafqazın hər üç ölkəsi öz daxillərində alternativ səslər üçün şərait yaradılması yönündə çalışmalıdır. Bundan əlavə, ümid edirəm ki, bölgə dövlətləri həyat və fəaliyyət üçün cəlbedici şəraitin yaradılması uğrunda yarışacaq, nəinki öz qüdrətlərini qabarmağa çalışacaqlar. Funksional demokratiyalar arasında sülh daha uzunmüddətlidir".

***

**Rusiyalı ekspert Aleksandr Karavayev:** "Nizamlama alınmasa da, heç olmasa İrəvan tərəfindən üçlü, yeni Bakı-İrəvan-Moskva formatında güzəştlər qarşılığında yaxınlaşma, əlaqələrin normallaşması tam mümkündür. Təbii ki, Türkiyənin köməyi ilə, çünki bu ölkə Güney Qafqazda nüfuzlu oyunçudur. Belə qüvvələr nisbəti ilə prinsipcə münaqişənin düyününü 80-90-cı illərdə onun başladığı səviyyədə açmağa başlamaq olar. Ən əsası, Moskva üçün bu, özününkülər arasında olan konfliktdir - o ölkələr arasında ki, onlarla Kreml regional miqyasda olduqca sıx və mühüm əlaqələrə malikdir. Ona görə də Moskva vəziyyətin kəskinləşməsinə seyrçi münasibətdə olmayacaq və ya əksinə, situasiyanı tamamən özbaşına buraxmayacaq. Yeri gəlmişkən, Putinin bölgəyə artan diqqəti bununla bağlıdır. Belə bir diqqət ötən ilin avqustunda təmas xəttində yaranmış böyük gərginlikdən sonra reallaşmış prezidentlərin Soçi görüşündə özünü büruzə verdi. Bu, onun göstəricisidir ki, Rusiya vəziyyəti nəzarət altında saxlayır. Ancaq bu düyünü necə açmaq barədə hansısa qərarlar da hələlik yoxdur".

***

**Rusiyalı politoloq Aleksandr Markarova** görə ötən ilin sonu üçün il ərzində əldə edilən bütün pozitiv məqamlar sıfırlanıb: "Hazırda biz nə hərb, nə də sülh vəziyyətinə sahibik. Müharibə nöqteyi-nəzərdən il kifayət qədər uğursuz oldu. Sülh nöqteyi-nəzərdən isə danışıqlar prosesi əvvəlki illərdə hansı səviyyədə idisə, o səviyyədə də qaldı. 2015-ci ildə nizamlama üzrə məhsuldar alternativ ssenarilərin axtarışına həsr olunacaq. Böyük ehtimalla, sülh prosesi mövcud sənədlər əsasında davam etdiriləcək. Lakin tərəflərin bir-birinə diametral zidd mövqeləri hesaba alınarsa, o zaman problemin həlli hamını qane edəcək alternativ təkliflərin axtarışı müstəvisindədir. Bütövlükdə irəliyə doğru yalnız təmas xəttində gərginliyin azalmasına yardımçı olacaq hansısa kiçik addımları gözləmək lazım gəlir. Yeni ildə dinc Qarabağ nizamlanmasına nail olmaq kifayət qədər mürəkkəb görünür".

***

Cənubi Qafqazda münaqişələrin yaranması əsasının 1920-ci ildən qoyulduğunu bildirən **rusiyalı təhlilçi və ekspert Stanislav Tarasov** Rusiyanın mövqe dəyişdirdiyini bildirib (axar.az). Onun sözlərinə görə, Ukrayna böhranı ilə bağlı Qərblə yaranan problemdən sonra Kreml Şərq ölkələri, o sırada Yaxın Şərq və Cənubi Qafqazda öz maraqlarına diqqət ayırmağa başlayıb və bu üzdən də Qarabağda müharibə ocağının yenidən alovlanması üçün şərait yaranıb: "Cənubi Qafqazda yenidən genişmiqyaslı əməliyyatlar başlana bilər. Qarabağ hadisələrin episentrinə çevrilir və bu, Rusiyanın günahı üzündən baş vermir. 2008-ci il Qafqaz müharibəsi və 2014-cü il Ukrayna böhranı münaqişələrin nizama salınmasını tələb edir. Cənubi Osetiya və Abxaziyada münaqişələrin başlanması mümkün deyil. Regional partlayış Qarabağda baş verə bilər və silahlı konflikt yalnız Qarabağda mümkündür".




***

**Rusiyalı analitik və politoloq Qriqori Trofimçuk** (vesti.az): "2014-cü ili Güney Qafqaz üçün uğurlu saymaq mümkündür, çünki Ukrayna böhranını nəzərə alsaq, bölgə açıq müharibəyə hələ ki, tuş gəlmədi. Başqa yandan, ötən il son dövrün ən ciddi, Qarabağ ixtilafının donunun açılmasına cəhd ili kimi yadda qaldı, hansı ixtilafı ki, əvvəlki az-çox sakit məcrasına qaytarmaq daha mümkün olmayacaq. Ancaq unutmaq lazım deyil ki, Cənubi Qafqazda təkcə Qarabağ problemi mövcud deyil. Problemli nöqtələrin sayı minimum 10-dur və onları kənar "bədxahlar" istənilən an partlada bilər. Məhz elə bu zonalar ən təhlükəlidir, nə qədər ki, bütün nəzərlər adət üzrə Qarabağa yönəlib".

**Ekspertin əminliyinə əsasən, Qarabağda sabitliyin pozulması xeyli dərəcədə münaqişə tərəflərinin davranışlarından asılı olacaq:** "Əgər onlar özlərini trivial aparmasalar - hansını ki, heç kəs onlardan gözləmir - o zaman situasiyanı özləri nəzarətdə saxlaya biləcəklər. Dəfələrlə dediyim kimi, Azərbaycan və Ermənistan prezidentlərinin cəmi bircə dəfə - ən yaxşısı da Qarabağda - üzbəsurət, "bağlı qapılar arxasında" görüşməsi kifayətdir ki, bu sensasiyadan bütün dünya danışsın. Əgər analoji addımlar, yaxud buna kimi olan ənənəvi analoji addımlar atılmasa, Qarabağ yenidən müharibə həddinə yaxınlaşacaq və gah İrəvan, gah da Bakı suçlu sayılacaq. Belə bir durumda, Ermənistan, nə də Azərbaycan dünyaya haqlı olduqlarını sübut edə, öz mövqeyini müdafiə edə bilməyəcək, çünki aparıcı dünya KİV-lərini onlar idarə eləmir. Qarabağ zonasında vəziyyətin hər növbəti kəskinləşməsi əvvəlkilərdən daha güclü olacaq ki, ictimai fikri həyəcanlandırmaq və onu gərginlikdə saxlamaq mümkün olsun".

**Analitik hesab edir ki, Rusiya sarıdan bu mənada hər hansı dəyişiklik olmayacaq:** "İndi Kremldən ötrü ən önəmlisi "təki müharibə olmasın" məşhur prinsipi üzrə mövcud situasiyanı saxlamaqdır. İstisna deyil ki, beynəlxalq vəziyyətin sürətlə pisləşməsi ilə əlaqədar hansısa bəyanatlar olsun, ancaq bundan artıq - heç nə. Sülh üçün böyük bir uğur ola bilər, əgər 2015-ci ildə daha bir, hətta bir neçə müharibə başlamasa. Axı az qala, indi hər il belə müharibələr gətirir. 2014-cü il tarixə Ukraynada müharibə ili kimi daxil oldu, necə ki, 2011 Liviya müharibəsi kimi düşdü".

***

Ekspertlərin rəy və proqnozlarından belə qənaət hasil olur ki, 2015-ci ildə də beynəlxalq güclərin Qarabağla bağlı əsas narahatlığı status-kvonu qoruyub saxlamaq və hərbi əməliyyatların qızışmasını əngəlləməklə ilgili olacaq. Demək, situasiyanı dəyişmək vəzifəsi yenə də ilk növbədə Bakının üzərində qalır...



## "Türkiyə ilə münasibətləri dalana salan Sərkisyandır..."

**Erməni siyasətçisi:** "Bu prosesdən uduşda Türkiyə və Azərbaycan, bir də o ölkələr oldu ki, sərhədlərin bağlı qalması onlara sərf edir..."



**"Serj Sərkisyan erməni-Türkiyə münasibətlərini metodik və ardıcıl şəkildə dalana salıb". Musavat.com erməni KİV-ə istinadən xəbər verir ki, belə bir açıqlama ilə müxalif Ermənistan Milli Konqresinin Xarici əlaqələr komissiyasının sədri Vladimir Karapetyan çıxış edib.**

Onun sözlərinə görə, Sürix protokollarının imzalandığı 2009-cu ildə Sərkisyanın avantürizmi dövlət təbliğatına çevrilsə də, Ermənistan prosesdən heç nə uda bilməyib. "Uduşda Türkiyə və Azərbaycan, bir də o ölkələr oldu ki, sərhədlərin bağlı qalması onlara sərf edir", - deyə siyasətçi vurğulayıb.

"Bu dalan - Serj Sərkisyanın rəqiblərimizə hədiyyəsidir və şüurlu şəkildə edilən fiaskoya görə 2009-2011-ci illərdə bu təşəbbüsü tərifləyənlər cavab verməlidir və verəcək" - əlavə edib müxalifət yetkilisi.

YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015

**Müsavat başqanlığına keçmiş namizəd Qubad İbadoğlunun yaratdığı Azərbaycan Demokratiya və Rifah Hərəkatının (ADR) sıraları genişlənir. Müsavatın rayon təşkilatlarında hərəkatın təşəbbüs qrupları yaradılır. İndiyə qədər Salyan və Suraxanıda hərəkatın mərkəzi qrupları yaradılıb. ADR rəhbərləri fəaliyyətlərini bu istiqamətdə davam etdirəcəklərini bildirirlər. Sosial şəbəkələrdə və mətbuatda gedən xəbərlərdə çoxları bu hərəkatı Müsavata alternativ kimi qələmə verirlər.**

# Müsavat rəhbərliyindən Qubad İbadoğlunun təşkilatının ünvanına sərt sözlər

**ADR-in Təşkilat Komitəsinin üzvü Hüseyn Məlik** yanvarın sonu və fevralın əvvəllərində hərəkatın təsis konfransını keçirəcəklərini bildirdi: "Artıq Salyan və Suraxanıda təşəbbüs qrupları yaratmışıq. Bununla bağlı partiya tərəfindən bizə hər hansı bir təzyiq olmayıb. Bu ayın sonu və fevralın əvvəllərinə təsis yığıncağı keçirməyi planlaşdırırıq. Yanvarın 9-da Səbayel təşkilatında yığıncağımız olacaq. Bu təşkilat təkcə müsavatçılardan ibarət deyil. Müsavat daxilində vaxtı ilə Arif Hacılı buna bənzər təşkilat yaratmışdı. Amma indi Müsavat rəhbərliyi tərəfindən qısqanclıq görürəm. ADR-in təşkilatlanma işinin sürətləndiyi vaxtda qısqanclıq edirlər. Bəziləri hesab edir ki, gələcəkdə siyasi təşkilata çevriləcəyik. İndiyə qədər bütün iclaslarda olmuşam. Partiya əleyhinə heç bir müzakirə olmayıb. ADR siyasi təşkilat deyil. İctimai-siyasi birlikdir. Partiya funksionerləri iddia edirlər ki, Müsavatı parçalayacağıq. Qətiyyən belə deyil, əksinə, məqsədimiz Müsavatın güclənməsidir. Biz müsavatçılıq ideologiyasına sona qədər sadiq qalacağıq".

**Müsavatın Suraxanı rayon təşkilatının sədri Rövşən Dəmirli** yaratdıqları təşəbbüs qrupu ilə bağlı bunları dedi: "Təşkilatda təşəbbüs qrupunu yaratdıqdan sonra Müsavat rəhbərliyi tərəfindən mənə hər hansı bir söz deyilməyib. Yalnız başqan müavini Elman Fəttah mənə zəng edərək, qərargahda olacaq iclası deyib. Sonra da qeyd edib ki, bəzi məsələləri orada müzakirə edərik. Mən də işimlə əlaqədar gələ bilməyəcəyimi dedim. Heç bir təhdid filan olmayıb. Ola da bilməz. Mənimlə heç kəs bu tonda danışa bilməz. Biz partiya əleyhinə heç bir iş görmürük. Sadəcə ictimai birlik yaratmışıq. Nizamnamə pozuntusu deyil. Çalışırıq ki, təkcə müsavatçılardan ibarət olmasın. Suraxanıda formalaşan təşəbbüs qrupunda Ədalət Partiyasının sədr müavini təmsil olunur. İki nəfər bitərəf gənc var. Yeni partiyaya alternativ qurum deyilik. Parlament seçkilərində iştirak edib-etməyəcəyimiz müzakirə olunacaq. Biz Müsavatın üzvləriyik. Partiyanın xətti ilə yerlərdə namizədliyimizi irəli sürəcəyik. Vəziyyət gələcəkdə başqa cür ola bilər. İndidən danışmaq tezdir".



**Gülağa Aslanlı:** "ADR Müsavatın əleyhinə olan hərəkatdır və ora yığışanların partiyaya rəğbətləri yoxdur"



**Hüseyn Məlik:** "Bir vaxtlar Arif Hacılı da partiya daxilində buna bənzər təşkilat yaratmışdı"



**Rövşən Dəmirli:** "Elman Fəttah zəng etdi... ...mənimlə heç kim təhdid tonunda danışa bilməz"

Bildirək ki, ADR-in Salyandakı təşəbbüs qrupu KXCP-nin rayon şöbəsinin qərargahında yaradılıb. Çoxları bu addımın Müsavat və KXCP arasında gərginliyin yaranmasına səbəb olacağını düşünür.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı** bu məsələdə partiyaları diqqətli olmağa çağırdı: "Hesab edirəm ki, ADR-in tədbir keçirdiyi yerlərin sahibləri ilə Müsavat arasında hər hansı bir narazılığın yaranmasına bir səbəb yoxdur. Sadəcə Müsavatla müttəfiq olan partiyalar nəzərə almalıdırlar ki, təşəbbüs qrupu yaradılan ADR Müsavatın əleyhinə olan hərəkatdır. İctimai-siyasi təşkilat olmasının bir anlamı yoxdur. O hərəkatda təmsil olunan şəxslərin əksəriyyəti nizamnaməni pozduqlarına görə partiyadan çıxarılanlardır. Müsavatdan istefa verən, qurultayın nəticələrini tanımayan, Məclisi legitim hesab etməyən, partiya rəhbərliyi barədə təhqiramiz ifadələr işlədən, hətta Müsavat rəhbərliyini İŞİD-a bənzədən insanlar orada toplaşıblar. Bu onu göstərir ki, bu hərəkatda olan insanların Müsavata rəğbət və hörmətləri yoxdur. Onlara yer verən təşkilatlar təbii ki, bunu nəzərə alsalar yaxşı olar".

❑ **Cavanşir ABBASLI**

# Əfv ərizəsi yazanlarda kimlər azadlığa buraxılmayıb?

## 10-a yaxın tanınmış siyasi məhbus əfv müraciəti yazmasına baxmayaraq, hələ də həbsdədir...



Pərviz Həşimli



Rəsul Cəfərov



Hilal Məmmədov

**İlin sonunda imzalanan əfv sərəncamı cəmiyyəti tam razı salmadı. Xüsusilə də prezidentə əfv üçün müraciət edənlərin və onların ailələrini. Doğrudur, azadlığa çıxan tanınmışlardan "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı və hüquqşünas Qurban Məmmədov istisna olmaqla, digərləri prezidentə əfv üçün müraciət etmişdilər. Amma bir çox şəxslər də belə bir müraciət etsələr də onlar azadlığa buraxılmadı.**

Əfv ərizəsi yazmalarına baxmayaraq, azad olunmayan tanınmış məhbusların siyahısını təqdim edirik:

1. Rəsul Cəfərov-hüquq müdafiəçisidir. Avqustun 2-də həbs olunub, qanunsuz sahibkarlıq və vergidən yayınmaqda ittiham olunur. Ötən ilin oktyabrında ölkə prezidentinə azad olunması ilə bağlı müraciət edib.

2. Hilal Məmmədov- "Tolışi sədo" qəzetinin baş redaktorudur. 2012-ci ilin iyununda həbs olunub. Məhkəmə onu dövlətə xəyanətdə, milli ayrı-seçkilik salmaqda və narkotik ticarətində təqsirli bilərək, 5 il müddətinə azadlıqdan məhrum edib. 2013-cü ilin prezident seçkiləri öncəsi İlham Əliyevə cəmiyyətdə ciddi müzakirə mövzusuna çevrilən dəstək müraciəti yazıb.

3. Rəşadət Axundov, Rəşad Həsənov, Məmməd Əzizov və İlkin Rüstəmzadə-NİDA vətəndaş hərəkatının üzvüdürlər. 2013-cü ilin mart-aprel aylarında həbs olunublar. Qanunsuz narkotik, partlayıcı maddə və kütləvi iğtişaşlar təşkil etməkdə ittiham olunurlar. Rəşadət Axundov və İlkin Rüstəmzadə 8, Rəşad Həsənov və Məmməd Əzizov 7.6 ay müddətinə azadlıqdan məhrum ediliblər. 29 sentyabr 2014-cü il tarixində bağışlanmaları üçün ölkə prezidentinə müraciət ediblər.

4. Ömər Məmmədov-VHP və NİDA üzvüdür. O, 2014-cü il yanvarın 24-də saxlanılıb. Üzərindən 6 qram heroin götürülüb. Müdafiəçiləri onun bloqçu fəaliyyətinə, ictimai-siyasi aktivliyinə görə tutulduğunu iddia edirlər. Cinayət Məcəlləsinin 234.4.3 maddəsi ilə ittiham olunan blogger 2014-cü il iyulun 4-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il azadlıqdan məhrum edilib. 2014-cü il oktyabrın 15-də əfv olunması üçün prezidentə müraciət ünvanlayıb.

5. Əbdül Əbilov-NİDA Vətəndaş Hərəkatının üzvüdür. 2013-cü il noyabrın 22-də həbs olunub. Bakı Ağır Cinayətlər Məhkəməsi onu 5 il 6 ay müddətinə azadlıqdan məhrum edib. Bloqçu narkotik alverində təqsirli bilinib. Əbdül Əbilov 2014-cü ilin dekabrında bağışlanması üçün ölkə başçısına müraciət edib.

6. Pərviz Həşimli-"Bizim Yol" qəzetinin köşə yazarı, hüquq müdafiəçisidir. 2013-cü il sentyabrın 27-də həbs olunub. O, Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahın və döyüş sursatının qaçaqmalçılığı) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini və döyüş sursatını əldə etmə, saxlama, daşıma) maddələri ilə ittiham olunaraq, 8 il müddətinə məhrumetmə cəzası alıb. Dekabrın 30-u əfvinə bir həftə qalmış bağışlanması üçün prezident İlham Əliyevə müraciət edib.

❑ **Cavanşir ABBASLI**

# Aeroportda yoxlama rəzaləti davam edir

## Hava limanında vətəndaşlar yerli-yersiz təkrar yoxlanır, çantaları açılıb-tökülür; AZAL Gömrük Komitəsinə müraciət etməyə çağırır, Ədalət Əliyev: "Yoxlamalar mədəni şəkildə aparılmalıdır"

**Bakı Hava limanında sərnişinlər üçün "Gestapo rejimi" yaradılıb. Vətənə qayıdan sərnişinlərin çantaları açılıb-tökülür, üzərindəki aksessuarlar, bilərzik, qol saatının hesabı sorulur, hətta əynindəki paltosuna qədər yoxlanılır.**



Məhərrəm Səfərli



Ədalət Əliyev

Vətəndaşların tez-tez qarşılaşdığı bu problem heç də ölkəyə başucalığı gətirmir. Gömrükçülər yerli-xarici turist arasında fərq qoymadan ölkəyə girən hər kəsi təpədən-dırnağa, kəmərlərinin, ayaqqabılarının içinə qədər yoxlayır.

Təyyarədən düşən, evinə gedən sərnişin üçün bu cür həssas yoxlama məntiqli görünmür. Sərnişinin təyyarəyə minmədən öncə bütün yoxlama prosedurlarından keçdiyini nəzərə alanda ikiqat-üçqat, təkrar yoxlamanın hansı səbəbdən yarandığı sual doğurur.

**AZAL Dövlət Konserni mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli** "Yeni Müsavat"a bildirdi ki, suallar Dövlət Gömrük Komitəsinə ünvanlanmalıdır, çünki yoxlamanı onlar aparır. Dövlət Gömrük Komitəsinin mətbuat xidməti isə mətbuatın suallarına demək olar ki, heç zaman cavab vermir.

**AZAL-ın keçmiş prezidenti Ədalət Əliyev isə "Yeni Müsavat"a** açıqlamasında qeyd etdi ki, təhlükəsizlik baxımından yoxlamalar mütləqdir.

Onun sözlərinə görə, Təhlükəsizlik Xidməti və Gömrük Komitəsi bu yoxlamaları həyata keçirməlidir. Ə.Əliyevin fikrincə, yoxlamalar mədəni şəkildə aparılmalıdır və vətəndaşın çantalarını kobud şəkildə açıb-tökmək etik deyil:

"Onlar bu yoxlamaların səbəbini izah etməlidir. Əgər hər hansı hadisə olacağı haqda məlumat daxil olubsa, yoxlama olmalıdır. Ancaq vətəndaş elektron avadanlıqlar da gətirə bilər, gömrükçülər bunu görürlər və əlavə çantanı açıb tökməyə ehtiyac yoxdur. Sadəcə, bu gün monopoliya var. Eyni zamanda bu yersiz yoxlamalardırsa və əlavə qeyri-rəsmi rüsum tələb etmək məqsədi ilə edilirsə, o zaman məsuliyyət yaradır".

**Keçmiş AZAL rəhbəri hesab edir ki, bu gün hava limanında təhlükəsizliyin təmin edilməsi üçün həm peşəkar komanda var, həm də müasir texniki avadanlıqlar:** "Qanunsuz malların, qadağan edilmiş materialların keçidinə nəzarət edən qüvvə var. Kim bu imkanlardan başqa cür istifadə edirsə, artıq ayrı qiymət vermək lazımdır".

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 5 (6033) 10 yanvar 2015

**Ermənilər tərəfindən ötən ilin iyulunda Kəlbəcərdə girov götürülən azərbaycanlılar - Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması istiqamətində beynəlxalq təşkilatlar susqun mövqe nümayiş etdirir. Bunula bağlı artıq Azərbaycan hakimiyyəti öz narazılığını vaxtaşırı dilə gətirir.**

# Kəlbəcərli girovların xilas yolları...

## Beynəlxalq təşkilatlar hələ ki susqun mövqe nümayiş etdirir; hüquqşünasa görə, tərəflərin razılığı ilə məsələni tənzimləmək mümkündür, girovlardan biri Rusiyaya ekstradisiya oluna bilər...

Prezident İlham Əliyevin tapşırığı ilə 7 beynəlxalq təşkilata girovlarla bağlı məktub göndərilib. Bu barədə mətbuata açıqlamasında hökumət adından bu işləri həyata keçirən baş nazirin müavini Əli Həsənov məlumat verib. Onun sözlərinə görə, artıq müraciətlərin yeddisinə də cavab gəlib. Ə.Həsənov bəzilərinin məsələyə formal yanaşdığını desə də, bəzilərinin obyektiv yanaşdığını, hətta üzr istədiyini söyləyib. Həsənov Ramil Səfərovu ölkəyə gətirdən prezidentin girovları da öz torpağımızda azad edəcəyinə əmin olduğunu da qeyd edib.

**Qeyd edək ki, kəlbəcərli girovların ekstradisiya məsələsi artıq gündəmə gəlib. Əli Həsənov bu məsələyə də toxunub:** "Hüquqi baxımdan bütün addımlar atılacaq. Hətta indi mən tapşırıq vermişəm ekstradisiya məsələsini də götür-qoy edirik. Nə üçün onlar orda qalmalıdır?"

Tanınmış hüquqşünas Müzəffər Baxış Avropa Şurasının bununla bağlı konvensiyasının olduğunu bildirdi: "Avropa Şurası üzvləri ilə bağlı belə bir konvensiya var. Ermənistan da bu konvensiya qoşulub. Amma Ermənistana münasibətdə Azərbaycanın şərti var. Burada başqa bir məsələ də var - girovlardan biri (Dilqəm Əsgərov) Rusiya vətəndaşıdır. Rusiya ilə Ermənistan arasında bu girovun cəzasını Rusiyada çəkmək üçün anlaşma əldə oluna bilər və heç bir problem yaşanmaz. Amma Azərbaycanla bağlı problem ortaya çıxa bilər. Hər bir halda mənə elə gəlir ki, tərəflərin razılığı ilə məsələni tənzimləmək mümkündür. Hətta konvensiyaya qoşulan vaxt Azərbaycanın Ermənistan və Dağlıq Qarabağla bağlı bir qayda olaraq qeydləri olur. Bu qeydlərə baxmayaraq, Ermənistan tərəfi razılıq versə, onları Azərbaycana ekstradisiya etmək mümkündür. Hər bir halda Ermənistan tərəfin razılığı lazımdır. Bunun üçün mənə elə gəlir ki, Ermənistan tərəfə beynəlxalq təşkilatların təzyiqi güclənməlidir. Bu olarsa, mənə gəlir ki, Ermənistan çəkinəcək".



**Hüquqşünas girovların azad edilməsi üçün Azərbaycan hakimiyyətinin hüquqi normada görə biləcəyi işlərdən də danışdı:** "Hüquqi tərəfdən onlar qondarma "DQR"-də mühakimə olunublar. Girovlarımızı "Dağlıq Qarabağ" qanunları ilə mühakimə ediblər. Hüquqi cəhətdən bu qondarma respublikanın özünə heç bir təzyiq göstərmək mümkün deyil. Ermənilər "Dağlıq Qarabağ Respublikası" adı altında öz məkrli niyyətlərini gizlədirlər. Bu nöqteyi-nəzərdən hesab edirəm ki, təzyiq olmadan mümkün deyil. "Dağlıq Qarabağ"ın özü beynəlxalq normalara uyğun deyil. Azərbaycan hökumətinin əlində həmin girovları azad etməklə bağlı hüquqi cəhətdən heç bir səlahiyyət yoxdur. Azərbaycanın kəşfiyyat imkanları hesabına yalnız onları oğurlayıb Azərbaycana gətirmək səlahiyyəti var".

Kəlbəcərli girovların azad edilməsi üçün Xarici İşlər Nazirliyinin gördüyü işlərlə maraqlandıq. **Nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** bununla bağlı 29 dekabr tarixində mövqe bildirdiklərini söylədi: "29 dekabr tarixində XİN-nin bununla bağlı açıqlaması var. Orada tamamilə mövqeyimiz əks olunub. Oradakı tezislər qüvvəsində qalır".

**Qeyd edək ki, əslən Kəlbəcərdən olan Dilqəm Əsgərov, Şahbaz Quliyev ermənilərin işğalı altından olan kəndlərini və yaxınlarının məzarını ziyarət etmək üçün Kəlbəcərə gediblər. İyulun əvvəllərində onlar Kəlbəcərdə işğalçı erməni hərbçiləri tərəfindən girov götürülüb. Onlarla birlikdə Kəlbəcərə gedən Cəbrayıl rayon sakini Həsən Həsənov isə ermənilər tərəfindən qətlə yetirilib. Bir müddət sonra Həsən Həsənovun meyiti Azərbaycana təhvil verilib. Qondarma rejimin "məhkəməsi" Dilqəm Əsgərov barəsində ömürlük azadlıqdan məhrum etmə, Şahbaz Quliyev barəsində isə 22 il azadlıqdan məhrumetmə "hökmü" çıxarıb.**

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan üçün "savaşdan qayıdanlar" təhlükəsi

## Paris olayları da göstərdi ki, radikal islamçıların Suriyadan geri qayıtması ölkə üçün təhlükə yaradır; son həbslər bu təhlükəni neytrallaşdırmağa hesablanıb, amma tutulmayanlar da var

**Yanvarın 7-də Milli Təhlükəsizlik Nazirliyi (MTN) əməkdaşları Bakıda əməliyyat keçirərək 10 nəfəri həbs edib. Nazirliyin yaydığı rəsmi məlumatda qeyd olunur ki, saxlanılanlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə və digər hüquqazidd əməllərin törədilməsində şübhəli bilinir.**



Saxlanılan Mustafayev Elxan İsa oğlu, Rəsulov Bəhruz Aydın oğlu, Əzizov Kamran İltifat oğlu, Əlixanov Nadir Mahir oğlu, Şahbazi Bəxtiyar İmriz oğlu, Şahbazi Behruz Bəxtiyar oğlu, Məhəmmədzadə Sadiq Yadigar oğlu, Hacıyev Rahim Sədi oğlu, Sultani Vidadi Saleh oğlu və Aslanov Ramil Urfan oğlu barəsində Cinayət Məcəlləsinin 12.1, 279.1-ci, 28, 283-1.3-cü və 283-1.3-cü maddələri ilə cinayət işi açılıb.

Müəyyən edilib ki, Elxan Mustafayev, Bəhruz Rəsulov, Kamran Əzizov, Nadir Əlixanov, Bəxtiyar Şahbazi və onun 1985-ci il təvəllüdlü oğlu Bəhruz Şahbazi, həmçinin Sadiq Məhəmmədzadə, Vidadi Sultani və Ramil Aslanov 2014-cü ildə qeyri-qanuni yolla Suriya Ərəb Respublikasının ərazisinə gediblər. Orada həmin ölkənin və Azərbaycan Respublikasının qanunvericilikləri ilə nəzərdə tutulmayan qanunsuz silahlı birləşmələrin tərkibində radikal dini və hərbi təlimlər keçmiş, müxtəlif növ odlu silahdan istifadə qaydalarını öyrəniblər.

Təlimlərdən sonra onlar Suriya Ərəb Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətlərində iştirak ediblər.

Qeyd edək ki, Azərbaycanda Suriyada savaşlara qatılan ölkə vətəndaşları ilə bağlı narahatlıq ötən ilin əvvəlində radikal islamçı qruplaşmalar arasında savaş başlayandan sonra yaranıb. 2014-cü ilin yanvarın 3-də Suriyada İŞİD və "ən-Nusra" qruplaşmaları arasında qanlı savaşlar başlayıb və hər iki qruplaşmada azərbaycanlıların olduğundan azərbaycanlıların ölüm xəbərləri artıb. Bundan sonra hökumət, rəsmi qurumlar və Qafqaz müsəlmanları İdarəsi səviyyəsində Suriyaya savaşa qarşı çağırışlar ediblər. Eyni zamanda Milli Məclis Cinayət Məcəlləsinə xarici ölkələrdə qeyri-qanuni birləşmələrə qoşulanlara ağır cəza nəzərdə tutan maddə əlavə edib.

Ehtimal olunur ki, Azərbaycandan Suriyaya, indi isə İraqa (daha əvvəl Pakistan və Əfqanıstana, o cümlədən Çeçenistana) gedərək radikal qruplara qoşulan radikal dindarların sayının çoxalması hakimiyyəti narahat edir. Çünki 2003-cü il, eləcə də 2008 və 2012-ci illərdə baş verən hadisələr göstərdi ki, bir qayda olaraq xarici ölkələrdə silahlı qruplara qoşulanlar sonradan Azərbaycana qayıdır və bir çox hallarda silahlı terror hücumlarda iştirak edirlər və problemə çevrilirlər. Son illərdə Yaxın Şərqdə baş verən savaşlara qoşulan şəxslərin sayının çox olması Avropa ölkələrini də narahat edir. Artıq bir sıra Avropa ölkəsi Yaxın Şərqdə terror qruplarına qoşulan şəxsləri həbs edir və ya vətəndaşlığını ləğv edir.

Azərbaycan hökuməti qanunları sərtləşdirib, bundan başqa ölkəni tərk edərək Suriyaya getmək istəyənlər bir çox hallarda sərhəddən geri qaytarılır və ya Türkiyədə həbs edilərək geri göndərilir. Ancaq bütün bunlara baxmayaraq vaxtaşırı mətbuatda ölkə vətəndaşlarının radikal qruplara qoşulmaq üçün Suriyaya getməsi xəbərləri yayılır. Son olaraq ötən il sentyabrın 23-də həyata keçirilən anti-İŞİD əməliyyatı zamanı 26 nəfər yaxalanmışdı. Bundan başqa bir qədər əvvəl Zərdabda Suriyada döyüşlərə qatılmış ölkə vətəndaşı məhkəmə hökmü ilə cəzalandırılıb.

**Son olaraq Parisdə baş verən terror hücumunun Suriyada döyüşlərdə iştirak etmiş iki qardaş tərəfindən törədilməsi bir daha Yaxın Şərqdən qayıdanlar təhlükəsini aktuallaşdırır. Fərqli ideologiyanın daşıyıcısı olan, ətrafdakı bütün dəyərləri heçə sayan və onları məhv etməyə hazır olan bir düşüncənin daşıyıcıları istənilən ölkə üçün təhlükəlidir. Azərbaycanda aparılan son həbslərin həm də sadə bir məntiqi var. Ölkədə çoxlu sayda, həbs olunanlardan daha çox həbsdə olmayan var. Bu isə təhlükənin xeyli dərəcədə real olduğunu göstərir.**

❑ **KƏNAN**

# Rəis müavini mal-qara oğurluğundan danışdı

## Səfər Nuriyev Günəşlidə heyvanların kütləvi qarəti ilə bağlı araşdırmalar aparıldığını açıqladı




**"Əgər oğurluq faktı varsa, hadisə baş veribsə deməli araşdırmalar aparılır. Bu araşdırmaların nəticəsi barədə də məlumat veriləcək".**

Bu sözləri "Yeni Müsavat"a açıqlamasında **Cəlilabad rayon Polis Şöbəsinin əməliyyat üzrə rəis müavini Səfər Nuriyev** rayonun Günəşli kəndində tüğyan edən mal-qara oğurluğu haqda danışarkən qeyd etdi. Rəis müavini əlavə məlumat verməyərək, araşdırmalar aparıldığını qeyd etdi.

Son aylar Cəlilabad rayonunda mal-qara oğurluğu tüğyan edir. Son bir neçə ay ərzində rayonda onlarla belə hadisə olub, lakin bu faktların heç birinin üstü açılmayıb. Məlumata görə, səbəb mal-qara oğrularının yerli icra və hüquq-mühafizə orqanları əməkdaşları ilə əlbir olmasıdır.

Bu iddia ilə rayonun Günəşli kəndindən olan bir qrup sakin çıxış edib. Onlar "Yeni Müsavat" qəzetinin redaksiyasına müraciətlərində sənədsiz doğura biləcək məqamları açıqlayıblar.

Şikayətçilərin dediklərindən belə məlum olur ki, təkcə Günəşli kəndində son bir ay yarım ərzində 4 böyük oğurluq hadisəsi baş verib. Rəfael Mehdiyev adlı kənd sakininin həyətindən 10 baş qoyun aparılıb. Ardınca Abdusalam Hacıyevin 7 baş qoyunu oğurlanıb.

Bundan bir gün sonra Abdusalam kişinin qapıbir qonşusu olan Mehman Babaşov adlı kəndlinin 5 baş qoyunu oğurlanıb. Daha sonra isə Samiq Əliyev adlı kənd sakininin 8 baş qoyunu oğurlanıb. Bir sözlə, Günəşlidə kütləvi mal-qara qarəti olub və indiyə qədər faktın üstü açılmayıb.

Mal-qarası aparılan kəndlilər bu haqda Cəlilabad rayonunun hüquq-mühafizə orqanlarına dərhal xəbər versələr də heç bir tədbir görülmür.

Bütün oğurluq hadisələrinin baş verdiyi həyətlərdə yerdən yapışqanlı lent ("skoç") qırıqları tapılır. Bu da oğruların heyvanlar mələyib səs salmasın deyə onların ağzını "skoç"la bağladığını göstərir. Zərərçəkən kəndlilərin sözlərinə görə, onların Cəlilabad Rayon Polis Şöbəsinə (RPŞ), rayon prokurorluğuna və kənd icra nümayəndəliyinə ünvanlanan müraciətləri cavabsız qalıb.

**R.Mehdiyev Cəlilabadda üzləşdiyi süründürməçilikdən bezdiyi üçün hətta Daxili İşlər Nazirliyinə, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə, Baş Prokurorluğa da müraciət edib.**

❑ **E.SALAMOĞLU**

# "Bankların krediti ancaq dollarla verəcəyi xəbərləri şayiədir"

## Ekspert: "Manatla kredit vermək banklara daha sərfəlidir"

**Xəbər verildiyi kimi, banklar öz müştərilərinə "sürpriz" hazırlayıb. Belə ki banklar öz dividentlərindən 10 faiz vergi tutacaq. Maraqlısı budur ki, bu əməliyyat müqavilə şərtlərinə uyğun olmadan və müştərilərə öncədən xəbərdarlıq edilmədən aparılıb. Yeni vergi tutma qaydaları barədə Milli Məclisin qəbul etdiyi yeni dəyişiklik hələ dövlət başçısı tərəfindən imzalanmayıb və qüvvəyə minməyib. Hansı ki, bu qaydalar yalnız illik 500 manatdan artıq olan əmanət gəlirindən vergi tutmağı müəyyən edib. Buna görə, indi əmanətə görə verilən istənilən faiz gəliri vergiyə cəlb olunur.**



Banklar bunu öz haqları hesab edir və qanuni sayır. Mütəxəssislər isə əksini düşünür.

**İqtisadçı ekspert Qubad İbadoğlu** bunun əmanətçilərin xərclərini artıran bir qərar olduğunu dedi: "Nəzərə almaq lazımdır ki, əmanətlərdən əldə edilən gəlirlərdən vergi tutulması ilə bağlı xəbər hər il var idi. Hər il prezidentin bununla bağlı qərarları, fərmanı olub. Ancaq illərdir ki, bu qərar təxirə salınırdı. Amma bu il təxirə salınmamağının səbəbi bəllidir. Bu il Azərbaycan büdcəsi üçün ağır bir il olacaq. Çünki büdcənin gəlirlərinin təminatında əsas mənbə ola neft gəlirlərinin ciddi şəkildə azalması gözlənilir. Ona görə də bu il yanaşma fərqli oldu. Qərar verildi ki, bu il əmanətlərdən əldə edilən gəlirdən vergi tutulsun. Bu əmanətçilərin əldə etdikləri gəlirlərin azalmasına gətirib çıxaracaq. Təxmini hesablamalara görə, bütövlükdə götürəndə 70 milyon manata qədər bu mənbədən dövlət büdcəsinə vəsait cəlb etmək mümkündür. Bütün bunlar dövlət büdcəsinə neft gəlirlərindən daxil olmaların 2015-ci ildə azalmasının proqnozlaşdırılması ilə bağlıdır".

**Bəzi banklarda artıq kreditin dollarla veriləcəyi xəbərlərinə gəlincə isə Q.İbadoğlu bunun şayiə olduğunu bildirdi:** "Mən hesab edirəm ki, bəzi bankların krediti artıq dollarla verəcəyi haqdakı xəbərlər şayiədir. Əgər Azərbaycanda ödəniş vasitəsi kimi manatdan istifadə olunursa, manatla da kredit almaq mümkündür. Çünki manatla əmanətlərin məbləği dollarla olan əmanətlərin məbləğindən çoxdur. Bu da onu deməyə əsas verir ki, banklar manatla kredit verməkdə daha çox maraqlı olmalıdırlar. Hələ ki bankların dollarla kredit verəcəyi barədə qərar yoxdur. Amma manatla kreditlərin verilməsinin dayandırılması hesab edirəm ki, düzgün qərar olmazdı. Çünki manat Azərbaycanın milli valyutasıdır və dövriyyədə olmalıdır. Yəni ki, banklar buna heç bir qadağa qoya bilməz".

**Digər iqtisadçı-ekspert Məhəmməd Talıblı** isə öz sosial şəbəkəsində yazdığı statusunda əmanətçilərdən 10 faiz vergi tutulmasının tam qanunsuz hesab etdiyini yazıb: "Bu hüquqi tənzimləmə deyil, açıq-aydın istismar və kobud qanun pozuntusudur. Banklar bu addımı ilə qanunsuzluq edir. Çünki yanvarın 1-dən ediləcək dəyişiklik sonrakı dövrə şamil edilərək qüvvəyə minə bilərdi. Hüquqi məntiq tələb edir ki, qanunvericilikdə baş verən dəyişiklərin geriyə qüvvəsi yoxdur. Yəni dəyişiklik keçmişə şamil oluna bilməz. Banklar bu qanunsuzluğu özlərinə rəva görə bilirlərsə, demək müştərilərin hüquqlarının pozulması istiqamətində bundan da böyük hüquqa zidd davranış nümayiş etdirə bilərlər. Ona görə də, belə bank institutlarına əmanətinizi etibar etməyi də məsləhət bilməzdim. O banklar ki, 8-10 faizə əmanətləri qəbul edib, həmin aktivləri 26-34 faizlə yenidən digər vətəndaşlarımıza satır, bu normal bank fəaliyyəti deyil, soyğunçuluqdur. Özünüzü kreditorların istismarından qoruyun!"

**Qeyd edək ki, yaranmış bu qeyri-müəyyənlik insanların banklara etimadına zərbə vurmaqla yanaşı, depozitlərin kütləvi şəkildə geri götürülməməsi təhlükəsini də yaradıb. Bu isə ilk növbədə bankların özünə zərbə vura bilər.**

❑ **Günel MANAFLI**



# Qarabağ qazilərindən Rəmişə sərt təpki

## Əli Mirəliyev isə ermənicə mahnı oxumağın qəbahət olmadığını deyir



**"Qarabağ Qaziləri" İctimai Birliyinin rəhbəri Etimad Əsədov xalq artisi Rəmişin erməni dilində mahnı oxumasına hiddətini bildirib. Onun sözlərinə görə, ifaçının "xalq artisti" titulu əlindən alınıb, efirlərdən uzaqlaşdırılmalıdır:**

"Bu cür müğənnilər, ifaçılar efirə çıxıb xalqa ağsaqqallıq edərək özlərinin ağılsız məsləhətlərini verirlər. Min bir yolla xalq artisi adını alıb özlərindən çıxırlar. Xalq artisti adını ucuzlaşdırıblar, noğul-konfet kimi kimə gəldi, paylayırlar. Bu səbəbdən belə olaylar baş veririr. Onlara elə gəlir ki, artıq ermənilərlərə birgə oxuyub, öpüşüb-ğörüşüb, bir səhnəni paylaşa və hətta mahnılarını erməni dilində oxuya bilərlər. Millətimiz isə nədənsə susur. Belə hərəkətləri ilə musiqiçilər Qarabağ iştirakçılarına, şəhidlərə, şəhid ailələrinə böyük hörmətsizlik etmiş olur.

Qarabağ qazisi kimi buna münasibətimi bildirirəm ki, Rəmiş kimilərinin adları əlindən alınıb efirlərə buraxılmaması gərəkdir. İctimai qınaq olmalıdır ki, bir daha belə xətalara yol verilməsin".

**Müğənni Əli Mirəliyev** isə xalq artisti Rəmişin erməni dilində mahnı oxumasına dəstək olaraq Musavat.com-un əməkdaşına erməni xalq mahnısını oxuyub. Onun sözlərinə görə, erməni dilində ifa etməkdə heç bir qəbahət yoxdur: "Rəmiş gitaranın atası, anasıdır, o, böyük sənətkardır. Belə cılız yollarla sənətkarı incitmək olmaz, indi deyirsiz bu hərəkətinə görə onu didək? Rəmişin 70 yaşı var, bu səbəbdən fikrini yaxşı izah edə bilmir. Amma axı burda nə var? Rəmiş təmiz qarabağlı, ağdamlı balasıdır, belə bir sənətkar üçün bu cür addım atmaq o qədər də qorxulu deyil. Mən Əli Mirəliyev olaraq həmişə Rəmişin arxasındayam.

Zamanında mən də toylarda erməni mahnısı oxumuşam. İndi gəlin sizə bir erməni mahnısı oxuyum (bir parça erməni xalq mahnısı oxuyur-X.G). Mən seyidəm, indi bu mahnını oxumaqla xaçpərəst, erməni olmadım ki.. Görün erməni Şarl Aznavur necə gözəl oxuyur, indi onu öldürək? Vaxtilə Mirzə Babayev, Zeynəb Xanlarova da erməni dilində və yaxud ermənilər üçün mahnı oxuyublar. Məsələn, "Yerevan" mahnısı... Gülər üzlü, istiqanlı Yerevan (oxuyur).

Biz həmişə ermənilərlə birgə yaşamışıq. Qonşularımızın hamısı ermənilər olub. Yazıq ermənilər bizim üçün işləyib əziyyət çəkiblər, kişiləri evlərimizi tikib, arvadları isə bizə arvadlıq ediblər. Məgər bunları unutmaq olar? Azərbaycanda və İrəvanda yaşayan ermənilər fərqlidirlər. Onların hətta dillərində də fərq var idi. Biz yaşlı nəsil erməni dilini bilirik, onlar bizim, biz də onların dilindən anlayırdıq. İndi də şəxsən mənim yaddaşımda bəzi sözlər qalıb. Burda təəccüblü heç bir şey yoxdur".

❑ **Xalidə GƏRAY**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- ✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- ✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- ✓ *Əla tələffüz və güvənlə danışmaq*
- ✓ *Real ingiliscə söhbətlər*

BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

# Qarda yollardakı qəzaların günahı kimdədir?

**Bakıya qar yağan kimi yollarda qəzalar haqqında xəbərlərin ardı-arası kəsilmir. Baş Dövlət Yol Polisi İdarəsinin mətbuat xidmətinin rəhbəri Kamran Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yanvarın 7-dən bəri 15 qəza hadisəsi qeydə alınıb: "Nəticədə 3 nəfər ölüb, 18 nəfər yaralanıb. Ancaq bu qəzaların əksəriyyəti hava şəraiti ilə əlaqədar olmayıb".**





**Kamran Əliyev:** "Təcrübəsiz sürücülərdən xahiş edirik ki, sükan arxasında əyləşməsinlər"

**Pünhan Mürsəliyev:** "Biz ən təhlükəli yolları təmizlədik..."

Kamran Əliyev onu da qeyd etdi ki, qarlı, buzlu hava şəraitini nəzərə alaraq nəqliyyatı idarə etmək təcrübəsi olmayan sürücülərə ümumiyyətlə, sükan arxasına oturmasa daha yaxşı olar: "Qarın yağması ilə əlaqədar hazırda ayrı-ayrı küçə və prospektlərdə buzlaşma olduğundan yollar sürüşkəndir. Bütün yolların 3-5 saat ərzində təmizlənməsi isə mümkün deyil. Bu səbəbdən belə havada nəqliyyat vasitələrini idarə etmək təcrübəsi olmayan sürücülərdən xahiş edirik ki, bu günlərdə sükan arxasında əyləşməsinlər. Belə sürücülər nəqliyyat vasitələrini düzgün idarə edə bilmir və yolun hərəkət hissəsində qalmaqla digər nəqliyyat vasitələrinin hərəkətinə maneçilik yaradırlar. Bəzən isə belə havada nəqliyyatı necə idarə etmək lazım gəldiyini bilmədiyindən qəza törədə, özlərinin və ətrafdakıların həyatı üçün təhlükə yarada bilərlər".

**BDYPİ sözçüsü qarlı, buzlu yollarla hərəkət edən piyadalara da səslənib:** "Piyadalar xüsusən yolu keçərkən diqqətli olmalıdırlar. Çünki piyada zolaqlarında hərəkət üstünlüyünün onların tərəfində olmasına baxmayaraq, başa düşməlidirlər ki, belə havada keçidə yaxınlaşan sürücüyə nəqliyyat vasitəsini saxlamaq üçün kifayət qədər uzun məsafə lazımdır. Ona görə də avtomobillərin qarşısına qəfil çıxmasınlar. Piyadalar yaxınlaşmaqda olan nəqliyyat vasitəsinin hərəkətini qiymətləndirdikdən, keçidin onlar üçün təhlükəsizliyinə əmin olduqdan sonra hərəkətlərini davam etdirsinlər".

Bakıda yolların durumu və dünəndən bəri görülən işlər haqqında "Yeni Müsavat"a danışan "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Pünhan Mürsəliyev isə bildirdi ki, sutka ərzində yolların qardan təmizlənməsi işi davam edib: "Yanvarın 9-da səhər saatlarına qədər yolların təmizlənməsi işi görülüb. Əsasən enişli-yoxuşlu yolları, sürüşmə təhlükəsi çox olan yollar qardan təmizlənib, duz, qum səpilib. Bizim ən böyük çətinliyimiz isə o oldu ki, təcrübəsiz sürücülər Bakı - Sumqayıt yolunda tıxac yaratmışdı, bu da həmin ərazidə bizim işimizə mane oldu. Belə havada nəqliyyat vasitəsini idarə edə bilməyənlər nəyə görə, şəxsi avtomobillə yola çıxır? Çətinliklərə baxmayaraq biz ən təhlükəli yolları təmizlədik, Bakı-Sumqayıt yolu, Bakı dairəvi yolu, Xocahəsən-Lökbatan yolu və digər yollarda heç bir problemdən söhbət gedə bilməz. Biz "Azəryolservis"in balansında olan yollara tam nəzarət edirik. Bəzi məhəllədaxili yollar var ki, onlar bizə aid deyil".

Pünhan Mürsəliyev qeyd etdi ki, əmrə əsasən, hər bir yol istismar müəssisəsi qışa hazırlıq üçün tədbirlər planı hazırlayıb: "Biz birinci mərhələ üzrə biz 25 min m3 qum, 1700 tona yaxın texniki duz ehtiyatı yaratmışıq və 1050 texnika vasitəsi ayırmışıq. Əgər hava kəskin şaxtalı keçərsə biz istər texnika ehtiyatını, istərsə də material ehtiyatını artıracağıq".

P. Mürsəliyev sürücülərə də səslənərək avtomobili qışa hazır etməyi məsləhət gördü: "Bizim yeganə tövsiyəmiz odur ki, qarlı havada nəqliyyat vasitəsini idarə edə bilməyən, eyni zamanda avtomobili qışa hazır olmayan sürücülər yola çıxmasınlar. Bu həm qəza yaradır, digər nəqliyyat vasitələrinin hərəkətinə əngəl yaradır. Eyni zamanda bizim texnikanı da işləməyə qoymur".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycan insanını aqressivləşdirən... GMO-dur?

## Ölkədə baş verən serial intihar və qətllərin kökündə dayanan ilginc səbəblər

**Son günlər cəmiyyətdə amansızlıqla törədilən qətllərin sayı xeyli artıb. Ər arvadını, qardaş qardaşını... ən qəddar üsulla qətlə yetirir. Keçmiş yoldaşının evini yandırandan tutmuş, dostunu xırda məbləğ üstündə qanına qəltan edənə qədər ölkənin kriminal xronikası bu sayaq hadisələrlə doludur. Son olaraq Sahil bağında baş verən qətl hadisəsi. Həyat yoldaşının üstünə hürən itin sahibini bıçaqla qətlə yetirən Elçin Çobanovun hekayəsi hələ yaddan çıxmayıb. E.Çobanov istintaqa ilkin ifadəsində də törətdiyi qətlin məhz bu səbəbdən olduğunu etiraf edib: "İt həyat yoldaşıma hürdü, sahibinə iti kənara çəkməsini söylədim, insident düşdü, gəzdirdiyim bıçaqla birini öldürdüm, o birini yaraladım".**



Azərbaycanlı kişilərin yanaşmasına görə, əslində E.Çobanov həyat yoldaşını qorumaqla düzgün addım atıb. Yəni itini gənc qadınların üstünə hürdürən şəxsə acıqlanmaq, bu duruma etiraz etmək olar... Amma buna görə qan tökmək, hansı səbəbdən bilinməz, cibdə bıçaq gəzdirmək... ciddi bir bəladan xəbər verir. İnsanlarımız aşırı dərəcədə aqressivləşib. Nəqliyyatda bir-birini az qala öldürməyə hazır sürücülər, mağazada, bankda növbədə özündən qabaqkının bir neçə saniyəlik ləngiməsinə görə qan tökməyə hazır azərbaycanlılar ordusu hardan və necə yaranıb?

**Psixoloq Azad İsazadə** hesab edir ki, amansızlıqla törədilən cinayətlərin sayının artmasının əsas səbəbi cəmiyyətdə aqressivliyin artmasıdır. Təbii ki, aqressivlik artanda, bu, ailə-məişət məsələlərinə də öz təsirini göstərir. Aqressivliyin əsas səbəbləri məişət şəraitinin ağır olmasına, iqtidasi çətinliklər, dünyada gedən proseslər, iqlim dəyişkənliyi və s. aid etmək olar.

**Baş psixiatr Gəray Gəraybəyli** isə mediaya açıqlamasında bildirib ki, insanların psixi sağlamlığını pozan səbəblər sırasından ekologiyadan tutmuş, səbirsizlik, vaxt məhdudiyyəti, stresslər və digər faktorları sadalaya bilərik. Onun sözlərinə görə, Yer kürəsində insanların sayı durmadan artır, bu da istər makro, istərsə də mikro problemlər yaradır. Müharibə, münaqişə, təbii fəlakətlər, şəhərlərdə əhalinin artması, bunun yaratdığı gərginliklər də psixioloji problemləri yaradan səbəblərdəndir. Əsəb yorğunluğunun əsas səbəbi istirahətsiz iş prosesidir".

**Psixiatrın sözlərinə görə, normal psixika üçün vacib şərtlərdən biri yuxudur. Amma şəhər mühitində normal yuxu yatmaq mümkün deyil:** "Çünki gecə küçədə olan səs-küy, gündüz saatlarından fərqlənmir. Nəticədə insan 8 saat yatsa da, dincəlmir. Bu stress də zamanla bədəndə toplanır və psixi problemlərlə nəticələnir. Münaqişələr, stresslər, daim tələsmək, küy də insan beynini yorur".

Daha bir iddia isə insanlarımızı hər gün dükan-bazardan aldıqları GMO(Genetik Modifikasiya Olunmuş) məhsullarının aqressivləşdirməsidir. Belə ki, orqanizmə ziyanlı olması dəfələrlə sübut edilmiş bu məhsulların psixikanı da sıradan çıxardığı sübut edilib.

Məsələn, heyvanlar üzərində aparılan araşdırmalar GMO-ların zərərsiz olmadığını göstərir. Məsələn, Şotlandiyanın Rowett İnstitutundan Dr. Arpad Pusztainin genetikası dəyişdirilmiş kartof ilə bəslədiyi siçanların hamısının daxili orqanlarında kiçilmə, həzm sistemlərində pozğunluq, immunitet sistemlərində çökmə, qan strukturlarında pozulma meydana gəlib.

Avstriya Kənd Təsərrüfatı və Səhiyyə Nazirliyinin maliyyəsi ilə Vyana Universitetinin keçən il apardığı araşdırmada isə GMO-lu qidaların verildiyi siçanların üç dörd nəsil sonra çoxalma qabiliyyətlərini itirdikləri aşkarlanıb.

Müstəqil araşdırmalara görə, geni modifikasiya edilmiş məhsulların antibiotiklərə qarşı müqavimət yaratdığı, allergiya, orqanlarda kiçilmə, qanın biyokimyasında pozulma,sonsuzluq, ölü doğum nisbətində ciddi artım, gələcək nəsillərdə boy və çəki əskikliyinə səbəb olduğu aşkarlanıb.

Bütün bunlara baxmayaraq, belə məhsulların zərərli olmadığını iddia edənlər də var. Ancaq, bir çox ölkədə məsələn Fransa, İsveçrə, Tayland, Səudiyyə Ərəbistanı, Boliviya, Polşa, Macarıstan və Gürcüstanda genetikası dəyişdirilmiş məhsulların qadağan edilməsi bunların zərərli olduğunu göstərir.

Kənd təsərrüfatı üzrə ekspertlər isə **iddia edir ki, GMO məhsulları insan orqanizmi üçün təhlükə mənbəyi sayılmır.** Belə ki, yəhudilər farel balığını çox sevirlər. Genetik modifikasiya yolu ilə onlar farel balığının çəkisini qısa müddətdə artırmağa nail olublar. Yəhudilərin hamısı - uşaqdan-böyüyə qədər bu balıqdan istifadə edirlər. Nəzərə almaq lazımdır ki, İsrail elmdə, səhiyyədə kifayət qədər inkişaf etmiş ölkədir.

**Azərbaycanda istehlak etdiyimiz məhsulların təxminən 90 faizə qədəri heyvan və bitki tərkibli GMO-dur. İnsan orqanizmi üçün zərərli olan məhsullar kimyəvi maddələrin tətbiqi nəticəsində istehsal edilən məhsullardır.** Bu gün fermer yüksək məhsul əldə etmək üçün daha çox mineral gübrədən istifadə edir, bu isə öz növbəsində əldə olunan məhsulda orqanizm üçün zərərli olan toksik maddənin miqdarını artırır. Fermerlər bu prosesi qaydasında idarə etməkdə acizdir. Süni yaradılmış gübrələrdən ideal şəkildə istifadə edərək prosesi normal idarə etmək çox çətindir. Bitki süni yolla yaradılmış mineral maddələri daha çox mənimsəyir, havalar çox isti keçən zaman və gecələr fotosintez prosesi dayandıqda, qeyri-üzvi maddələrin üzvi maddələrə çevrilməsi prosesi dayanır. Nəticədə bitkidə və onun meyvəsində toplanan mineral maddələr toksik maddələrə çevrilir.

**Toksik maddələrin isə insan beyninə mənfi təsiri elm tərəfindən sübuta yetirilib.**

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 5 (6033) 10 yanvar 2015



## Analıq intuisiyası... yalan çıxdı

Analıq intuisiyası deyilən şey, sən demə, əfsanə imiş. Saint-Etienne Universitetinin araşdırmaçılarına görə, ağlayan bir körpənin problemini anlamaq üçün valideynin cinsiyyəti heç bir önəm daşımır. Bu məsələdə əsas məqam onun körpəsi ilə nə qədər vaxt keçirməsidir. Araşdırmanı həyata keçirən professor Nikolas Mathevon 58 ilə 153 günlük arasında 29 körpənin ağlamasını qeydə alıb. Uşaqların 15-I Fransadan, 14-ü isə Demokratik Konqo Cümhuriyyətindən idi. Uşaqların Afrika və Fransadan seçilməsinin səbəbi isə mədəniyyətlərarası fərqlərin bu durum üzərində nə dərəcədə təsirli olub-olmadığını anlamaq idi. Ailələrə uşaqların ağlama səsini dinlədəndən sonra onlardan hansı uşağın onlarınkı olduğunu müəyyənləşdirmələri tapşırılıb. Maraqlıdır ki, nəticə etibarilə qadınların 98 faizi ağlama səsindən öz uşaqlarını müəyyənləşdirə biliblər. Amma uşaqları ilə çox vaxt keçirən ataların 90 faizi də bu məsələdə uğur qazanıb. Uşaqları ilə gündə 4 saatdan az vaxt keçirən ataların 75 faizi onların səsini tanıya bildi.

# Öz-özünə bağlanan ayaqqabı

İdman malları istehsalçısı Nike bu il yeni, unikal krossovkaların istehsalı ilə bağlı anons verib. Anonsa görə, bu krossovkalar "Gələcəyə dönüş" adlı məşhur filmdəkilər kimi olacaq. Yəni, istifadəçi onu ayağına geyinən kimi krossovka avtomatik özü bağlanacaq. Bunu firmanın innovasiya şöbəsinin rəhbəri Tinker Hetfild bildirib. Onun sözlərinə görə, sözügedən texnologiya ötən ildən patentləşdirilib. Bundan başqa, krossovkanın işıqlandırma sistemi də olacaq. Yəni, ayağa geyinilən kimi öz-özünə işıq saçacaq. Hetfild malın mağazaya çıxarılacağı tarixi, eləcə də qiymətini dəqiq deməyib. Maraqlıdır ki, 1989-cu ildə çəkilən sözügedən filmdə krossovkaları Marti Makflay adlı qəhrəman geyinir və onun gələcəyə səfəri məhz 2015-ci ilə təsadüf edir. Buna görə də kampaniya sözügedən malı 2015-də bazara çıxarmağı planlaşdırır.



# Türkiyə məhkəməsindən qəribə xəyanət qərarı



Xəyanətkar ərini bağışlayan qadın növbəti dəfə xəyanətə uğradığı üçün məhkəməyə müraciət edib. Türkiyədə baş verən bu hadisə zamanı A.Y adlı qadın ərinin ona ikinci xəyanətini hüquqi yollarla cəzalandırmaq qərarına gəlib. "Hürriyyət" qəzetinin xəbərinə görə, qadın məhkəmədə uduzub. Məhkəmə qərar verib ki, bağışlanan ər yenidən eyni qadınla münasibət qursa, bu, xəyanət sayılmır. Daha öncəki məhkəmə instansiyasında isə qadının şikayətinə "bir dəfə aldatmaqdan heç nə olmaz" deyə cavab verilmişdi. İkinci instansiya məhkəməsində isə bildirilib ki, əgər qadın ona xəyanət edən ərini bir dəfə bağışlayıbsa, kişi eyni qadınla ikinci dəfə ona xəyanət edərsə, bu, onu aldatmaq və ya xəyanət sayılmır.

## Hansı peşə sahiblərinin evliliyi uzun çəkmir?

Diş həkimləri daha çox başqa peşənin sahibləri ilə evlənirlər. Ən çox boşanan peşə sahibləri isə dekoratorlardır. Milli.Az xəbər verir ki, bu maraqlı faktları amerikalı sosioloqlar üzə çıxarıblar.



2010-cu ildə ABŞ-da dantistlərin 81%-i evləniblər və ya ərə gediblər. Bundan başqa, baş direktor vəzifələrində çalışan adamlar da tənha yaşaya bilmirlər. İstehsalat sahəsində çalışanlar, terapevtlər, ortopedlər, okulistlər və zəhmət adamları da evlənməyi arzu edirlər.

Ancaq bəzi peşə sahibləri var ki, onlar tənhalığa məhkumdurlar. Bunlara kinomexaniklər şamil edilir.

Sosioloqlar ən çox boşanan peşə sahibləri haqda da söz açıblar. Sən demə, ən çox boşanan adamlar dekoratorlar, qazma qurğularının operatorları, tibb bacıları, sosial işçilər, malaçılar və hərbçilərdir. Onların nikahları uzun sürmür.



## Müalicə olunmaq istədi, məhkəməyə düşdü

Amerikanın Konnektikut ştatında məhkəmə 17 yaşlı qızın məcburi qaydada kimyəvi müalicə alması üçün qərar çıxarıb. Bu barədə lenta.ru saytı xəbər verir. Kassander soyadlı qıza xərçəng diaqnozu qoyulandan sonra ona kimyəvi müalicə kursu yazılıb. Gənc qız isə hesab edir ki, bu müalicə onun səhhətinə daha böyük zərbə vuracaq, nəinki xəstəliyi. Qızının atasız, təkbaşına böyüdən anası Ceki Fortin isə bildirib ki, qızının mövqeyi ilə razıdır və onu dərmanla zəhərləməyə icazə verməyəcək. Kassandra özü isə iki kimyəvi müalicə prosedurundan sonra tibb mərkəzindən qaçıb. Mərkəzin rəhbərliyi isə onunla bağlı öncə valideynlərinə, ardınca isə məhkəməyə müraciət edib. Həkimlər bildirib ki, əgər xəstə onların tövsiyələrinə əməl etsə, sağalma şansı 80-85 faizdir. Məhkəmə də son nəticədə xəstəxananın tələbini yerinə yetirən qərar çıxarıb. Ana-qız isə konstitusiya hüquqlarının pozulduğunu iddia edərək, qərardan şikayət ediblər.

## Qoroskop



(10 yanvar) Səbuhi Rəhimli

QOÇ - Gücünüz çatmayan işlərə girişməyin. Çünki bu təqvimdə məsuliyyət hissiniz azalacaq və bu da nəticədə zərərinizə ola bilər. Odur ki, daha çox mənəvi rahatlığa üstünlük verin.

BUĞA - Çoxsaylı və maraqlı insanlarla bir yerdə olmaq sizə rahatlıq gətirəcək. Yaxşı olar ki, bunu nahardan sonraya saxlayasınız. O vaxta qədərsə ənənəvi fəaliyyətlə məşğul olun.

ƏKİZLƏR - İkili fikirlərdən, faktsız ittihamlardan uzaq olsanız, gün ərzində hansısa xoşagəlməzliklə rastlaşmayacaqsınız. Həmkarlarınızla, köhnə dostlarınızla təbii olmağı bacarın.

XƏRÇƏNG - Kosmik fonun bürcünüzdəki neqativliyi müəyyən məqamlarda uğursuzluq yaradacaq. Ələlxüsus da günün ilk yarısında daha tədbirli olmalısınız. Məsuliyyətsiz adamlardan qaçın.

ŞİR - Qəbir ziyarəti, yaşlı qohumlara baş çəkmək gün ərzində savablarınızı artıra bilər. İş-gücdən, məişət problemlərindən uzaq olub bir az da genetik irsinizə xidmət edin.

QIZ - Astroloji göstəricilər ixtiyarınızda olan bu təqvimin müəyyən çətinliklərindən xəbər verir. Amma daxili potensialınızdan yararlanıb qarşıda duran maneələri dəf edə bilərsiniz.

TƏRƏZİ - Yaxşı olar ki, özünüzü çox yormayasınız. Əks təqdirdə mənəvi rahatlıqdan uzaq olacaqsınız. Nahardan sonra ünsiyyətdə olduğunuz adamlar tərəfindən sevindiriləmə ehtimalınız var.

ƏQRƏB - İş prinsipində nəzərəçarpacaq irəliləyişlər əldə etmək üçün olduqca səmərəli vaxtdır. Hətta aktivliyinizi artırmaqla şəxsi büdcənizdə müsbət dəyişiklik də edə bilərsiniz. Uzaq yola çıxmayın.

OXATAN - Qarşınızda əsl biznes günü durub. Amma uğurlarınız daha çox əvvəlcədən planlaşdırılmış işlərdə özünü göstərəcək. Belə məqamlarda istənilən mübahisə başınızı ağrıda bilər.

OĞLAQ - İslami dəyərlərə, dini ənənələrə əməl etməyə çalışın. Heç olmasa həftədə bir dəfə savab işlər görmək yaxşı olardı. Ürəyinizə yaxın hər kəsə mərhəmət göstərin. Sülhpərvər olun.

SUTÖKƏN - Günün ümumi mənzərəsi müsbət çalarlıdır. Bu səbəbdən də ətrafınıza gözəllik bəxş edin. İnsan ruhuna zərər gətirən amillərdən uzaq olun. Dilinizi duasız qoymayın.

BALIQLAR - Əgər ovqatınızın yüksək, işlərinizin avand olmasını istəyirsinizsə, ətrafınızda olanlarla xoş davranın. Dediyiniz hər bir sözün məsuliyyətini dərk edin. Əsəblərinizə diqqət yetirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Meymun uşağa analıq edir



Hindistanın Haryana əyalətinə bağlı Yamunagar şəhərində bir evə girən meymun evdəki 16 aylıq qızı sanki övladlığa götürüb. Körpəyə eynilə bir ana kimi sahiblənən meymun hər fürsətdə balasını öpür, qucaqlayır və təmizləyir. Körpənin atası Sultan Singh təxminən üç ay əvvəl qızlarının yanına gəldiklərində bir pəncərədən girdiyi aydın olan meymunla oynadıqlarını gördüklərini söyləyib. Singh deyib ki, meymunun qızları sanki sahiblənərək öpüb daramasını görüncə heyvanı evə götürməyə qərar veriblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300